Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 213 (7940) BAZAR, 23 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Milli Məclis Azərbaycanın inkişafına və beynəlxalq aləmdə güclənməsinə böyük töhfələr verir

### Parlament bundan sonra da Konstitusiya ilə müəyyən olunan vəzifələrini məsuliyyətlə və layiqincə həyata keçirəcək, Prezident İlham Əliyevin dövlətçiliyimizin və xalqımızın maraqlarının təmin olunmasına xidmət edən siyasətinə dəstək olacaq

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamasına baxmayaraq, xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmiş, həyata keçirdiyi tədbirlər dövlətçilik ənənələrinin bərpasına və inkişafına böyük təsir göstərmişdi. Qısa müddətdə Xalq Cümhuriyyətinin dövlətçilik atributları, ölkə hakimiyyətinin bütün qolları yaradılmışdı.

### 100 il əvvəl başlayan demokratiya

Sentyabrın 21-də yaranmasının 100 illiyi təntənəli şəkildə qeyd edilən Azərbaycan Parlamentinin fəaliyyəti Xalq Cümhuriyyətinin qısa müddətdə həyata keçirdiyi dövlət quruculuğunun parlaq səhifəsidir. 100 il əvvəl yaranmasına və demokratik dəyərlərin indiki kimi bərqərar olmamasına baxmayaraq, Azərbaycan parlamenti demokratik bir qurum idi. Parlamentin tərkibi, müzakirələrin aparılması, qanun layihələrinin üçüncü oxunuşdan sonra qəbulu, hökumətin fəaliyyəti ilə bağlı qərarlar Azərbaycan xalqının demokratik dəyərlərə hələ 100 il əvvəl bağlı olduğunu göstərir. Fəaliyyət göstərdiyi 17 ay ərzində parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsinin çıxarılması isə bu qurumun səmərəli və dinamik fəaliyyətindən xəbər verir. Parlament o dövrdə Azərbaycan dilini dövlət dili elan etdi. Şərqdə ilk dəfə olaraq Azərbaycan Parlamenti qadınlara seçki hüququ verdi.

Bütövlükdə, Azərbaycan Xalq Cümhuriyyəti parlamenti ölkəmizdə dövlətçilik məfkurəsinin və siyasi mədəniyyətin inkişafında mühüm rol oynayıb. Bu parlamentin uğurlu fəaliyyəti sübut etdi ki, Azərbaycan xalqı demokratik prinsiplərə əsaslanan milli dövlət qurmağa qadirdir.

### Heydər Əliyevin rəhbərliyi parlamentin də fəaliyyətinə canlanma gətirmişdi

Sovet dövründə respublikamızda qanunverici orqan mövcud olsa da, onun demokratik fəaliyyət prinsiplərindən söhbət gedə bilməzdi. Lakin ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə qanunverici orqanın da fəaliyyətində canlanma yarandı. Bu mərhələdə sovet parlamenti olmasına baxmayaraq, respublikada bütün sahələrdə inkişafın təmin edilməsi üçün qanunvericilik bazasının möhkəmləndirilməsi davam etmişdir. Ali qanunverici orqanın geniş imkanlarından yüksək peşəkarlıqla istifadə edən Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər xalqda milli oyanışı və özünüdərk hissini gücləndirmiş, Azərbaycan SSR Ali Sovetində milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanılmasına, elmi-intellektual tərəqqiyə xidmət edən mühüm qanunlar, qərarlar qəbul olunmuşdur.

Heydər Əliyevin yeritdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi, qanunvericilik orqanına da bacarıqlı və layiqli adamların seçilməsi üçün şərait yaratdı. Ötən əsrin 70-80-ci illərində icra orqanları ilə parlamentin işinin səmərəli koordinasiyası milli tərəqqi üçün zəruri əsaslar formalaşdırmış, Azərbaycanın gələcək siyasi müstəqilliyinə möhkəm körpü salmışdır.

### Müstəqilliyimizin və müasir parlamentarizmin banisi

Müstəqilliyin ilk illərində parlament öz üzərinə düşən vəzifələri yerinə yetirmək iqtidarında deyildi. Qanunverici orqan ancaq siyasi çəkişmələr meydanına çevrilmiş, ölkənin taleyüklü problemləri diqqətdən kənarda qalmışdı. Həmin dövrdə parlamentdə baş verənlər ümumiyyətlə siyasi etikaya uyğun deyildi. Hətta o illərdə parlamentin iclaslarında Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, gələcək inkişafı ilə bağlı çıxışlar edən ulu öndər Heydər Əliyevə qarşı siyasi təzyiqlər edilirdi. Amma məhz Heydər Əliyev 1993-cü ildə ölkə rəhbərliyinə gəlişi ilə Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə yanaşı, parlamentin də sivil fəaliyyətini təmin etdi.

*Ardı 3-cü səh.*



## İlham Əliyevdən sahibkarlara növbəti mühüm dəstək

### Kiçik və Orta Biznesin İnkişafı Agentliyi iş adamlarının dostuna çevrilərək onların hüquqi təminatının gücləndirilməsinə xidmət edəcək

Azərbaycanda həyata keçirilən iqtisadi strategiyanın prioritet istiqamətlərindən biri də ölkədə sahibkarlığın inkişafıdır. Bu gün dövlət başçısının “ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır” strateji xəttinə uyğun olaraq sahibkarlığın inkişafına xüsusi diqqət göstərilir, sistemli və kompleks tədbirlər həyata keçirilir.

Bunun nəticəsidir ki, son 15 ildə ölkəmizdə fəaliyyət göstərən sahibkarların sayı 4,2 dəfə artıb. İndiyədək 35 mindən çox sahibkara 2,2 milyard manatadək güzəştli kreditlər verilib.

### Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır

Sahibkarlığın inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər 2018-ci ildə də uğurlu nəticələr verir.

Prezident İlham Əliyevin dünya ölkələrinin qabaqcıl təcrübəsinin ölkəmizə gətirilməsi, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal, infrastruktur sahələrinin yaradılması istiqamətində verdiyi göstərişlər, tapşırıqlar Azərbaycan iqtisadiyyatının daha da şaxələnməsini təmin edib. Bu xüsusda onu da vurğulaya bilərik ki, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı bu prosesi daha da genişləndirib. Ötən ilin dekabrında dövlət başçısının kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə dair imzaladığı mühüm fərman İlham Əliyevin bu sahəyə nə qədər diqqət göstərdiyini bir daha təsdiqlədi.

“Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır”, - deyən Azərbaycan Prezidenti hələ bir neçə il öncə hər bir sahə üzrə konkret proqramları, planların və böyük maliyyə resurslarının olduğunu söyləyəndə məhz belə layihələri nəzərdə tuturdu.

### Sahibkarlara böyük dəstək olacaq yeni agentlik

Bu ilin iyun ayında isə Prezident İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOB) fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayaraq qurumun nizamnaməsi və strukturunu təsdiqlədi.

Düzdür, hazırda Azərbaycanda müxtəlif dövlət orqanları öz səlahiyyətləri çərçivəsində kiçik və orta sahibkarlıq subyektlərinə müxtəlif xidmətlər (o cümlədən məsləhət xidməti, satış və digər istiqamətlər üzrə dəstək) göstərirlər. Bununla belə, beynəlxalq təcrübəyə əsasən, kiçik və orta sahibkarlıq subyektlərinə belə xidmətlərin vahid mərkəzdən göstərilməsi onların həmin xidmətlərdən daha səmərəli istifadəsinə və beləliklə, inkişafına yaxşı imkan yaradır. Buna görə də KOB İnkişafı Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Agentliyin əsas məqsədi kiçik və orta sahibkarların dostuna çevrilməsi və eyni zamanda sahibkarlığın hüquqi təminatının gücləndirilməsi, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir.

### İlk “KOB Dostu” Cənub bölgəsində yaradıldı

Artıq yeni agentliyin bir regional bölməsi yaradılıb. Prezident İlham Əliyev sentyabrın 18-də Cənub bölgəsinə səfəri çərçivəsində Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edərkən İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin “Kiçik və Orta Biznesin Dostu” (KOB) Mərkəzi ilə tanış olub. Mərkəz məhəllənin inzibati binasında yerləşir.

Gələcəkdə ölkənin digər şəhər və rayonlarında da sahibkarlara dəstək məqsədilə yaradılacaq “Kiçik və Orta Biznesin Dostu” mərkəzlərinin fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, kiçik və orta sahibkarlığın inkişafı vasitəsilə regionun potensialının reallaşdırılmasına yönələcək.

*Ardı 3-cü səh.*

## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2018-ci il*

## Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri Əlahəzrət Məhəmməd bin Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Ölkənizin milli bayramı - Krallıq elan edilməsi günü münasibətilə Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş xalqınıza daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2018-ci il*

## T.S.Süleymanovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tahir Süleyman oğlu Süleymanov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2018-ci il*

## Dünya cüdosunun nəbzi Bakıda döyünür



### Azərbaycanın qazandığı zəngin təcrübə və möhtəşəm qələbələr dünya çempionatının uğurla keçiriləcəyinə təminat verir

**İdman ölkəsi kimi dünyada şöhrət tapan, gənc və dünyəvi dövlət statusu daşıyan Azərbaycan növbəti mötəbər yarışa - cüdo üzrə dünya çempionatına evsahibliyi etməklə planetin idman tarixində yeni səhifə açacaq. Artıq 4 gündür başlayan və sentyabrın 27-dək davam edəcək çempionatda 125 ölkədən 800-dək idmançı mübarizə aparır.**




Əlbəttə ki, Azərbaycanın təşkilatçılıq məsələlərində əldə etdiyi təcrübə bu yarışın da yüksək səviyyədə keçiriləcəyinə heç bir şübhə yeri qoymur. Son 4 il ərzində paytaxtımızda təşkil olunan I Avropa və IV İslam Həmrəyliyi Oyunları ilə dünya idmanının paytaxtına çevrilən Azərbaycan qazanılan zəngin təcrübə və möhtəşəm qələbələr ilə bu mötəbər yarışa da artıq uğurla evsahibliyi etməkdədir.

### Yarışların təşkilində ən mükəmməl nümunə

2015-ci ildə Avropa Oyunlarını, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirməklə Avropa və İslam aləminin idman tarixinə möhür vuran Azərbaycan dövləti dünyaya yüksək təşkilatçılıq nümunəsi göstərdi.

*Ardı 2-ci səh.*

# Dünya cüdosunun nəbzi Bakıda döyünür

Əvvəli 1-ci səh.

Avropa və müsəlman ölkələri, onların olimpiya komitələri, beynəlxalq təşkilatlar ölkəmizin qısa müddət ərzində belə bir beynəlxalq miqyaslı idman tədbirlərini yüksək səviyyədə keçirməsinə və Azərbaycan dövlətinin qüdrətinə şahid oldular. İdman yarışlarının təşkilinin ən mükəmməl örnəyini yaradan ölkəmiz elə bir nümunə göstərdi ki, milyonlarla insan heyran qaldı və dünya Azərbaycanı yenidən kəşf etdi.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu idman siyasəti və idmançılarımızın qazandıqları nailiyyətlər sayəsində ölkəmiz beynəlxalq səviyyədə nüfuzlu idman dövlətlərindən biri kimi qəbul olunur. Dövlət tərəfindən hərtərəfli qayğı göstərilən idmançılarımız da bu etimadı layiqincə doğruldurlar. Elə bir mötəbər yarış yoxdur ki, onlar ölkəmizi təmsil etməsinlər, medal və mükafatlar qazanmasınlar.

Bakıdakı dünya çempionatında 9 kişi və 6 qadın idmançı ilə təmsil olunan cüdoçularımızın növbəti dəfə etimadı doğruldacaqlarına böyük inam var.

Prezident İlham Əliyevin və onun ailə üzvlərinin cüdoçularımızın yarışlarını birbaşa zalda izləməsi isə onlara verilən ən böyük mənəvi dəstəkdir.








## Mehriban xanım Əliyevaya növbəti beynəlxalq etimad

Dünya çempionatının təntənəli açılış mərasimi çərçivəsində isə Azərbaycan idmanı adına daha bir xoş xəbər gəldi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalı təqdim olunub.

Bütün bunlar isə sözsüz ki, Mehriban xanım Əliyevanın idman sahəsində gördüyü işlərə verilən növbəti qiymətdir. Xatırladaq ki, I Avropa və IV İslam Həmrəyliyi Oyunlarında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Hər iki Oyunlar bütün məziyyətləri ilə müstəqil Azərbaycanı dünyaya yenidən tanıtdı, ölkəmizin təbliğində olduqca müstəsna rol oynadı. Bu baxımdan ən yüksək mükafatlarla təltif olunması Mehriban xanım Əliyevanın layiqli və mənəvi haqqıdır.

## İlk günün qalibləri

Sentyabrın 20-də Bakıdakı Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatına start verilib. Çempionatın ilk günündə 60 kiloqram çəki dərəcəsində kişilər, 48 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə çıxıblar. Ölkəmizi bu çəki dərəcəsində Orxan Səfərov, Kəramət Hüseynov və Aişə Qurbanlı təmsil ediblər. Turnirin ilk günündə Azərbaycan cüdoçuları mükafatçılar sırasında yer ala bilməyiblər.

Qadınların yarışında final görüşündə yaponiyalı Funa Tonakini məğlub edən ukraynalı Daria Bilodid dünya çempionu adını qazanıb. Argentinalı Paula Pareto və Qazaxıstan cüdoçusu Otqont Qalbadrax yarışı üçüncü pillədə başa vurublar.

Kişilərin mübarizəsində isə Rusiya idmançısı Robert Mşvidobadzeyə qalib gələn yaponiyalı Naohisa Takato fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yaponiyanın digər təmsilçisi Ryuju Naqayama və gürcüstanlı Amiran Papinaşvili mundialın bürünc medalını qazanıblar.

## Yaponiyalı bacı-qardaşın çempionluq sevinci

Sentyabrın 21-də isə dünya çempionatının ikinci günündə 66 kiloqram çəki dərəcəsində kişilər, 52 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə çıxıblar. Ölkəmizi bu çəki dərəcələrində təmsil edən Nicat Şıxəlizadə mübarizəni 1/16 final mərhələsində, Buyankişiq Purevsuren isə 1/32 finalda dayandırıb.

Kişilərin mübarizəsində yaponiyalı Hifumi Abe dünya çempionu adını qazanıb. Qazaxıstan cüdoçusu Yerlan Serikzhanov ikinci yeri tutub. Koreya Respublikasının idmançısı Baul An və ukraynalı Georgi Zantaraia bürünc medal əldə ediblər.

Qadınların yarışında Yaponiya idmançıları Uta Abe və Ai Şişime müvafiq olaraq qızıl və gümüş medal qazanıblar. Braziliya təmsilçisi Erika Miranda və fransalı Amandine Buçard turniri üçüncü pillədə başa vurublar.

## Hidayət Heydərovun "bürünc"ü

Dünən isə dünya çempionatında növbəti mükafatçıların adına aydınlıq gəlib. Dünya çempionatının üçüncü günündə 73 kiloqram çəki dərəcəsində kişilər, 57 kiloqram çəki dərəcəsində isə qadınlar tatami üzərinə çıxıblar.

Ölkəmizi bu çəki dərəcələrində kişilər arasında Hidayət Heydərov, Rüstəm Orucov və qadınlar arasında İçinxorlo Munxtsedev təmsil ediblər.

Qadınlar arasında 57 kq çəki dərəcəsində finalda Nekoda Smite-Davisə (Böyük Britaniya) qalib gələn Tsukasa Yoşida (Yaponiya) dünya çempionu olub.

Ölkəmizə dünya çempionatında ilk medalı Hidayət Heydərov qazandırıb. Təmsilçimiz 1/32 final mərhələsində iraqlı Sajjad Sehenlə qarşılaşıb. Hidayət rəqibinə ipponla qalib gələrək 1/16 finala vəsiqə qazanıb. Bu mərhələdə H.Heydərovun rəqibi Sedrik Bessi (Monako) olub. Bu dəfə də rəqibini ipponla məğlub edən cüdoçumuz 1/8 final mərhələsinə yüksəlib.

Bu mərhələdə Hidayətin rəqibi tacikistanlı Bəhruzi Xocazoda olub. Rəqibini mübarizədən kənarlaşdıran təmsilçimiz adını dörddəbir finala yazdırıb. 1/4 finalda Monqolustan idmançısı Odbayar Qanbaatara qalib gələn Hidayət finala gedən yolda yaponiyalı Soiçi Haşimoto ilə güləşib.

Bu görüşdə qalib gələ bilməyən H.Heydərov bürünc medal uğrunda görüşdə monqolustanlı Tsoqtbaatar Tsend-Oçiri ilə qarşılaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri qarşılaşmaya baxıblar. Görüşü qalib başa vuran Hidayət dünya çempionatında Azərbaycana ilk medalı qazandırıb.

73 kq çəki dərəcəsində finalda yaponiyalı Soiçi Haşimoto və Koreya Respublikasının cüdoçusu Çanqrim An üz-üzə gəliblər. Görüş koreyalı idmançının qələbəsi ilə yekunlaşıb.

Qaliblərə medalları Azərbaycan Cüdo Federasiyasının prezidenti, Beynəlxalq Cüdo Federasiyasının İcraiyyə Komitəsinin üzvü Rövnəq Abdullayev təqdim edib.

## "İlham Əliyevin yarışı izləməsi mənə əlavə qüvvə verdi"

"Bu, mənim cüdo üzrə böyüklər arasında dünya çempionatında ilk medalımdır. Yarımfinalda rəqibim dünya çempionu Soiçi Haşimoto idi. Təəssüf ki, güclü yaponiyalı idmançı məndən üstün oldu. Prezident İlham Əliyevin yarışı izləməsi mənə əlavə qüvvə verdi. Bürünc medal uğrunda mübarizədə Monqolustan idmançısı Tsoqtbaatar Tsend-Oçirə qalib gəldim. Bakıda medal qazandığım üçün çox sevinirəm. Bu, karyeramda ən böyük uğurumdur". Bu sözləri jurnalistlərə müsahibəsində Avropa çempionu və dünya çempionatının bürünc mükafatçısı Hidayət Heydərov deyib.

Yarımfinalda məğlubiyyətinin səbəblərini Hidayət belə izah edib: "Yaponiyalı rəqibim yarışlara yaxşı hazırlaşmışdı. Mən isə gərgin keçən görüşün sonunda artıq yorulmuşdum. Düşünürəm ki, yorğunluq məni finaldan ayırdı".

## İlham Zəkiyevə yeddinci dan qara kəmər təqdim olundu

Dünya çempionatının keçirildiyi günlər həm də maraqlı məqamlarla yadda qalıb. Belə ki, paracüdoçumuz İlham Zəkiyevə yeddinci dan qara kəmər təqdim olunub. İdmançımıza yeddinci dan qara kəməri Beynəlxalq Cüdo Federasiyasının idman direktoru Vladimir Varta təqdim edib.

İlham Zəkiyev qeyd edib ki, cüdo üzrə dünya çempionatının ölkəmizdə keçirilməsi tarixi hadisədir: "Bu dünya çempionatı mənim üçün yaddaqalan oldu. Beynəlxalq Cüdo Federasiyasının idman direktoru Vladimir Varta cüdoda qazandığım nailiyyətlərə görə mənə 7-ci Dan Qara Kəmər təqdim etdi. Bütün bunlar, Azərbaycanda idmançılara göstərilən diqqət və qayğı ölkəmizin rəhbəri, idmançıların dostu İlham Əliyevin adı ilə bağlıdır".

Xatırladaq ki, ölkəmizin idman şərəfini daim uca tutmuş Milli Paralimpiya Komitəsinin vitse-prezidenti İlham Zəkiyev ikiqat paralimpiya, ikiqat dünya, yeddiqat Avropa çempionu, ilk Avropa Oyunlarının qalibidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş terror aktı nəticəsində insanların həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmi pisləyir, onun bütün forma və təzahürlərinə qarşı qətiyyətlə mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

*Allah rəhmət eləsin!*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2018-ci il*

## Vyetnam Kommunist Partiyasının Baş katibi zati-aliləri cənab Nquyen Fu Çonqa

Hörmətli cənab Baş katib!

Vyetnam Sosialist Respublikasının Prezidenti, görkəmli dövlət xadimi Çan Day Kuanqın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Çan Day Kuanq Azərbaycan-Vyetnam münasibətlərinin inkişafına, ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfələr vermişdir.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxınlarına, bütün Vyetnam xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2018-ci il*

# Azərbaycan-İordaniya münasibətləri bir çox müsəlman ölkələrinə nümunədir

Dünən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov parlamentin 100 illiyi münasibəti ilə ölkəmizdə səfərdə olan İordaniya nümayəndə heyətinin rəhbəri Favzi Daoudla görüşüb.

İki ölkə arasında siyasi əlaqələrin yüksək formada inkişaf etdiyini diqqətə çatdıran Ziyafət Əsgərov bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev və İordaniya Kralı II Abdullah ibn Al Hüseyn arasında çox böyük qardaşlıq münasibətləri var. İordaniya hər zaman Azərbaycanın haqq işi olan Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə ölkəmizi müdafiə edib: "Azərbaycanla İordaniya arasında münasibətlər bir çox müsəlman ölkələrinə nümunə ola bilər. İordaniyanın Yuxarı Palatası olan Senat artıq Xocalı soyqırımını tanıyıb. Çox istərdik ki, Nümayəndələr Palatasında da bu məsələyə baxılsın və müvafiq qərar verilsin. Dünyanın bir çox ölkələrində Xocalı soyqırımı tanınıb. Ən əsası, İslam Əməkdaşlıq Təşkilatı bu soyqırımı tanıyıb və bütün müsəlman dövlətlərinə tövsiyə edib ki, Xocalı soyqırımı məsələsinə baxsınlar və onu tanısınlar".

30 ilə yaxındır ki, Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini, ölkədə 1 milyondan artıq qaçqın və məcburi köçkün olduğunu deyən Ziyafət Əsgərov vurğuladı ki, BMT-nin qəbul etdiyi 4 qətnaməyə, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Şurasının, Avropa Parlamentinin qərarlarına Ermənistan məhəl qoymur.

Azərbaycanın müstəqillik əldə etdikdən sonra qısa zaman ərzində çox sürətlə inkişaf etdiyini və qüdrətli dövlətə çevrildiyini söyləyən Favzi Daoud iki ölkə arasında bundan sonra da siyasi, ticari, iqtisadi və digər əlaqələrin daha da inkişafına səy göstərəcəklərini bildirdi. "Biz parlament nümayəndələri olaraq İordaniya ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu bilirik. Bu münasibətlərin əsası Kral II Abdullah ibn Al Hüseyn və Prezident İlham Əliyev tərəfindən qoyulub. Biz bu əlaqələrin necə dərin xarakter daşıdığını görürük. Ölkələrimizin parlamentləri arasında da yaxşı əməkdaşlıq mövcuddur", - deyə nümayəndə heyətinin rəhbəri söylədi.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan qısa zaman ərzində qüdrətli dövlətə çevrilib

*Milli Məclisin Sədri Oqtay Əsədov müxtəlif ölkələrin parlament və hökumət rəsmiləri ilə görüşlər keçirib*

Sentyabrın 22-də Milli Məclisin Sədri Oqtay Əsədov Rusiya Federasiyası Dövlət Dumasının sədr müavini Sergey İvanoviç Neverovla görüşüb. Azərbaycanın Rusiya ilə əməkdaşlığa böyük önəm verdiyini söyləyən Oqtay Əsədov münasibətlərin getdikcə daha da dərinləşdiyini vurğulayıb.

Görüşdə iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etdiyi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi qeyd edilib. Söhbət zamanı Oqtay Əsədov Rusiya və Azərbaycan nümayəndə heyətlərinin beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqe nümayiş etdirdiklərini də diqqətə çatdırıb. İki ölkənin parlamentləri arasındakı əlaqələrin yaxşı səviyyədə olduğu da bildirilib.

Rusiya Federasiyası Dövlət Dumasının sədr müavini Sergey İvanoviç Neverov öz növbəsində Azərbaycan Parlamentinin 100 illik yubileyi ilə bağlı səmimi təbriklərini çatdırıb və bu münasibətlə təşkil edilən mərasimdə iştirakına görə məmnunluğunu ifadə edib.

Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə əlaqələrin gündən-günə inkişaf etdiyini diqqətə çatdıran qonaq tərəflərin bu əməkdaşlığın daha da dərinləşməsi üçün əzmlə çalışdığını əlavə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.





* * *

Dünən Milli Məclisin Sədri Oqtay Əsədov Oman Sultanlığı Dövlət Şurasının sədri Yəhya bin Məhfuz Əl-Munziri ilə də görüşüb. Bu səfərin Azərbaycan və Oman arasındakı əməkdaşlıqda bəzi boşluqların doldurulmasında faydalı olacağını diqqətə çatdıran Oqtay Əsədov mövcud əlaqələrin möhkəmləndirilməsi üçün qonağı ölkəmizə rəsmi səfərə dəvət edib.

Oman Sultanlığı Dövlət Şurasının sədri Yəhya bin Məhfuz Əl-Munziri Milli Məclisin Sədrinin dəvətini razılıqla qarşılayıb. Azərbaycan Parlamentinin 100 illiyi münasibətilə təşkil edilən tədbirdən söz açan diplomat ölkəmizin qonaqpərvərliyini xüsusi vurğulayıb. O, Oman Sultanlığının Parlament Sədrinin də bu münasibətlə səmimi təbrik və salamlarını çatdırıb.



Qonaq Azərbaycan və Oman arasında əməkdaşlığın yaxşı səviyyədə olduğunu qeyd edib. Dövlət Şurasının sədri ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində hər iki tərəfin səfirlərinin uğurlu fəaliyyət göstərəcəyinə ümidvar olduğunu ifadə edib.

* * *

Sentyabrın 22-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan İndoneziya Regional Nümayəndələr Şurasının sədri Oesman Saptanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Sədri Azərbaycan ilə İndoneziya arasında münasibətlərin səmimi dostluq, qardaşlıq üzərində qurulduğunu deyib. Bildirib ki, Azərbaycan İndoneziya ilə əlaqələrin inkişafına önəm verir. O, bu münasibətlərin bundan sonra da qarşılıqlı faydalılıq əsasında davam etdirilməsinin vacibliyini vurğulayıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, İndoneziyanın Azərbaycanla sıx siyasi, iqtisadi, mədəni əlaqələri var. O, turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin də zəruriliyini qeyd edib.

İndoneziya Regional Nümayəndələr Şurasının sədri Oesman Sapta Azərbaycana səfərdən məmnunluğunu bildirib, ölkəmizdə gördüklərinin onlarda xoş təəssüratlar yaratdığını qeyd edib. O, Azərbaycan ilə İndoneziya arasında bir çox sahələrdə əməkdaşlığın inkişafının məmnunluq doğurduğunu deyib.

Görüşdə iki ölkə arasında əməkdaşlığın perspektivləri müzakirə edilib.

***Fərizə ƏHMƏDOVA,***
***Fərman BAĞIROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# *Azizi ABDUCABBOR:* "Tacikistan Azərbaycan ilə əlaqələrin dərinləşdirilməsində maraqlıdır"

Sentyabrın 22-də Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Tacikistan Nümayəndələr Palatası sədrinin birinci müavini Azizi Abducabborun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında əlaqələrin daha da dərinləşdirilməsi məsələləri müzakirə edilib.

Ziyafət Əsgərov deyib ki, xalqlarımızın tarixən bütün sahələrdə sıx əlaqələri mövcuddur, Azərbaycanın və Tacikistanın dövlət başçıları arasında səmimi dostluq münasibətləri dövlətlərarası əlaqələrin genişləndirilməsi üçün etibarlı baza yaradıb. Azərbaycan-Tacikistan münasibətləri yüksələn xətlə inkişaf edir.

Birinci vitse-spiker parlamentlərarası əlaqələrin genişləndirilməsinin, deputatların görüşlərinin və ikitərəfli qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyini qeyd edib. Z.Əsgərov ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğunu vurğulayıb.

Azərbaycan parlamentinin 100 illiyinə həsr olunan tədbirin yüksək səviyyədə keçirildiyini deyən Azizi Abducabbor qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O qeyd edib ki, ta qədimlərdən Tacikistanla Azərbaycanı birləşdirən tellər var. Tacikistan Azərbaycan ilə əlaqələrin dərinləşdirilməsində maraqlıdır. O, əminliyini bildirib ki, bundan sonra da birgə iş öz bəhrəsini verəcək. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində ulu öndər Heydər Əliyevin müstəsna rolu var. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev həmin siyasi kursu uğurla davam etdirir.

Söhbət zamanı, həmçinin parlamentlərarası əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# İndoneziya Regional Nümayəndələr Şurasının sədri Azərbaycana səfərə gəlib

İndoneziya Respublikası Regional Nümayəndələr Şurasının sədri Oesman Sapta Azərbaycan parlamentinin 100 illiyi çərçivəsində keçirilən tədbirlərdə iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Oesman Saptanı Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov və digər rəsmi şəxslər qarşılayıblar.

# Milli Məclis Azərbaycanın inkişafına və beynəlxalq aləmdə güclənməsinə böyük töhfələr verir

## Parlament bundan sonra da Konstitusiya ilə müəyyən olunan vəzifələrini məsuliyyətlə və layiqincə həyata keçirəcək, Prezident İlham Əliyevin dövlətçiliyimizin və xalqımızın maraqlarının təmin olunmasına xidmət edən siyasətinə dəstək olacaq

*Əvvəli 1-ci səh.*

Heydər Əliyevin hakimiyyətə qayıdışı Ali Sovetdən başlamışdı. Yalnız onun rəhbərliyindən sonra qanunverici orqanın fəaliyyəti dövlətçilik məsələlərinə, ölkənin düşdüyü problemlərin həllinə istiqamətləndirildi. Beləliklə, ulu öndər Heydər Əliyev həm müstəqil Azərbaycanın, həm də müasir, sivil parlamentarizmin banisi oldu. Belə ki, Heydər Əliyev cəmi 4 ay Ali Sovetin Sədri vəzifəsində çalışdı. Amma ulu öndər bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

### 23 ildə 5750-yə qədər qanun və qərar qəbul edilib

Həmin dövrdən başlayaraq artıq 23 ilə yaxındır ki, Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyəti səlahiyyətlərini uğurla həyata keçirir. Parlament ölkədə aparılan hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun, demokratikləşdirmə prosesinin, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinin möhkəm hüquqi bazasını yaratmış və təkmilləşdirmişdir. 1995-ci ildən indiyədək Milli Məclis dövlət və cəmiyyət həyatının müxtəlif sahələrini nizama salan 5750-yə qədər qanun və qərar qəbul etmişdir. Ötən illər ərzində parlamentin fəaliyyətinə nəzər salarkən hökmən qeyd edilməlidir ki, Azərbaycanda parlamentarizm ənənələri daha da inkişaf etmiş və zənginləşmişdir. Milli Məclisin peşəkarlıq səviyyəsi yüksəlmişdir.

Sentyabrın 21-də keçirilən təntənəli mərasimdə çıxış edən Prezident İlham Əliyev parlamentin fəaliyyətini yüksək qiymətləndirərək deyib: “Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafını təmin edir, bu inkişafa öz töhfəsini verir. Bir çox qanunlar qəbul edilmişdir. Demək olar ki, bu qanunlar həyatımızın bütün sahələrini əhatə edir. Bizim qanunvericilik bazamız ən yüksək meyarlara cavab verir. Biz bir çox beynəlxalq konvensiyalara qoşulmuşuq və azadlıqların təmin edilməsində, demokratik inkişafla bağlı siyasətimizin aparılmasında Azərbaycan parlamentinin çox böyük rolu var. Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər”.









### Ölkə Prezidenti qanunverici orqana çox böyük diqqət və dəstək göstərir

Milli Məclis həm də on beynəlxalq təşkilatın üzvüdür. Milli Məclisdə 80-dən çox ölkənin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Parlament Konstitusiyada nəzərdə tutulan funksiyasını çox uğurla həyata keçirir. Həmçinin Milli Məclis Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məsələsini daim diqqət mərkəzində saxlayır.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev Milli Məclisin fəaliyyəti ilə bağlı məsələləri dərindən bildiyinə görə qanunverici orqana çox böyük diqqət və dəstək göstərir. Prezident İlham Əliyev birinci və ikinci çağırış Milli Məclisin deputatı olub, Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinə rəhbərlik edib. O dövrdə Azərbaycan Avropa Şurasında bir çox mühüm uğurlara imza atıb, Ermənistanın işğalçı siyasəti ilə bağlı sənədlərin qəbuluna nail olub. Bu mənada cənab İlham Əliyevin parlamentdəki fəaliyyət illəri ölkəmizin və Milli Məclisin beynəlxalq uğurları baxımından əlamətdar dövrdür.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da deputatlıq fəaliyyəti mühüm tərəfləri ilə yadda qalıb. Mehriban Əliyevanın rəhbərlik etdiyi Azərbaycan-Fransa və Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupları ölkəmizin beynəlxalq əlaqələrinin dərinləşməsinə böyük töhfələr verib. 12 ilə yaxın müddətdə Mehriban Əliyeva qanunvericilik bazasının möhkəmləndirilməsində, parlamentin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak edib. Onun təklifi və dəstəyi ilə dörd amnistiya aktı qəbul olunub.

Milli Məclis öz fəaliyyəti ilə ölkədə gedən inkişafa, Azərbaycanın beynəlxalq aləmdə güclənməsinə, sabitliyə layiqli töhfələr verir. Bütün bunlar həm də cümhuriyyət dövründə əsası qoyulmuş ənənələrin davamıdır. Milli Məclis o dövrdə formalaşmış parlamentarizm ənənələrini keyfiyyətcə yeni mərhələdə yaşadır. Azərbaycan parlamenti bundan sonra da Konstitusiya ilə müəyyən olunan vəzifələrini məsuliyyətlə və layiqincə həyata keçirəcək, Prezident İlham Əliyevin dövlətçiliyimizin və xalqımızın maraqlarının təmin olunmasına xidmət edən siyasətinə dəstək olacaq.

***Rəşad CƏFƏRLİ, “Azərbaycan”***

# İlham Əliyevdən sahibkarlara növbəti mühüm dəstək

## Kiçik və Orta Biznesin İnkişafı Agentliyi iş adamlarının dostuna çevrilərək onların hüquqi təminatının gücləndirilməsinə xidmət edəcək



*Əvvəli 1-ci səh.*

Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq olunacaq.



### Hədəf sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevrilməkdir

Dövlət başçısının respublikanın Cənub bölgəsinə səfərindən 3 gün sonra, sentyabrın 21-də Masallı Sənaye Məhəlləsində ilk “KOB Dostu”nun təqdimat mərasimi keçirilib. Regionda sahibkarlara xidmətlər göstərən dövlət orqanları və təşkilatlarının 20-dən artıq səlahiyyətli nümayəndəsinin, özəl bölmənin təmsilçilərinin iştirakı ilə keçirilən mərasimdə yeni yaradılan agentliyin və ilk regional mərkəzin fəaliyyət istiqaməti barədə ətraflı məlumat verilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sahibkarlığın inkişafı, bu istiqamətdə həyata keçirilən tədbirlər barədə məlumat verərək bildirib ki, agentliyin yaradılması dövlət başçısı tərəfindən sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir göstəricisidir: “Agentliyin missiyası kiçik və orta biznesin tənzimlənməsi sahəsində effektivliyin artırılması, çoxsaylı dəstək mexanizmlərinə sahibkarların rahat çıxışının təmin edilməsi, biznes subyektlərinin maraqlarının müdafiəsi əsasında bu sektorun davamlı inkişafının təmin edilməsindən ibarətdir. Hədəfimiz qurumu sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevirməkdir”.

### 10 iqtisadi rayon üzrə 60 “KOB Dostu” şəbəkəsi yaradılacaq

Orxan Məmmədov diqqətə çatdırıb ki, “KOB Dostu”nun fəaliyyəti yeni kiçik və orta biznes sahələrinin yaranmasına, sahibkarlığın inkişafına yönəldiləcək. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq olunacaq.

“KOB Dostu” sahibkarlara biznes planının hazırlanmasında yardımçı olacaq, eyni zamanda sahibkarla dövlət strukturları, kredit təşkilatları arasında körpü rolunu oynayacaq. Kiçik və orta sahibkarın çətinliklərinin aradan qaldırılmasına hərtərəfli dəstək göstərəcək.

Ümumiyyətlə, “KOB Dostları” kiçik və orta biznesin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərəcək. Eyni zamanda, sahibkarlarla sıx əlaqələr qurulacaq və “KOB Dostları” onların inkişaf ehtiyaclarını sorğular vasitəsilə öyrənəcək. Bu isə həmin tələblərə operativ reaksiyanı təmin etməyə imkan verəcək.

Masallı və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarlar “KOB Dostu”nun xidmətlərindən istifadə edə bilərlər. Tezliklə ölkənin digər rayonlarında da sahibkarlara dəstək məqsədilə “KOB Dostu” mərkəzləri yaradılacaq. Ümumilikdə 10 iqtisadi rayon üzrə 60 “KOB Dostu” şəbəkəsi yaradılacaq.

### “KOB Evi” və “KOB könüllüləri”

Orxan Məmmədovun sözlərinə görə, yeni hədəflərin reallaşdırılması məqsədilə agentlik tərəfindən bir sıra strateji layihələr reallaşdırılmaqdadır. Kiçik və orta sahibkarlığın inkişafı, onlara dəstəyin və müvafiq xidmətlərin göstərilməsi üçün “KOB Dostu” ilə yanaşı “KOB Evi”, “KOB könüllüləri” və s. kimi yeni mexanizmlər tətbiq olunacaq.

Hazırda agentlik, sahibkarları dəstəkləyən, onlara bir sıra xidmətlər göstərən, dövlət orqanlarının və təşkilatlarının bu sahədə göstərdikləri xidmətlərin bir məkanda - “Kiçik və Orta Biznes Evləri”ndə təşkili ilə bağlı mühüm layihəni həyata keçirməkdədir. Bu evlərdə 35 dövlət orqanı və təşkilatlarının 100-dən artıq xidmət növünün bir məkan prinsipi əsasında verilməsi təmin ediləcək, digər tərəfdən sahibkarlar bu evlərdə çoxsaylı dəstək tədbirləri ilə əhatə olunacaq. İlk “KOB Evi”nin Bakı şəhərində açılışı nəzərdə tutulur. Növbəti mərhələdə regionlarda da belə evlər yaradılacaq.

“KOB könüllüləri” isə mərkəzə müraciət edən sahibkarlara lazımi kömək göstərəcək və bu isə gələcəkdə onların mərkəzdə müvafiq işlərlə təmin olunmalarına böyük dəstək olacaq.

### “KOB Evi” yeni innovativ brend kimi formalaşacaq

Orxan Məmmədov vurğulayıb ki, bununla yanaşı elektron formada vahid platforma üzərindən xidmətlərin göstərilməsini təmin edəcək “e-KOB evi” portalının yaradılması ilə bağlı işlərə də başlanılıb: “Əminik ki, bu sahibkar evləri ölkəmizin yeni innovativ brendi kimi formalaşacaq və sizlərə şəffaf, operativ şəkildə xidmət göstərəcək”.

Onun sözlərinə görə, agentliyin fəaliyyəti kiçik və orta sahibkarlığın yaradılmasının və inkişafının bütün mərhələlərində zəruri dəstək tədbirlərinin təşkilinə yönələcək. Bu tədbirlər güzəştli maliyyə mənbələrinə çıxışın asanlaşdırılması, qabaqcıl təşkilati modellərin tətbiqi, davamlı təlim sisteminin yaradılması, yeni ideya və innovasiyaların biznesə inteqrasiyası, xarici bazarlara çıxışı, sahibkarların maraqlarının müdafiəsi və digər istiqamətləri əhatə edəcək.

### Agentlik yeni idarəetmə modelləri də tətbiq etməkdədir

“Bütün qeyd etdiyim istiqamətləri sahibkarlar, investorlar, dövlət qurumları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində reallaşdırmaq niyyətindəyik”, - deyən Orxan Məmmədov bildirib ki, agentlik Prezident İlham Əliyevin onların qarşısına qoyduğu vəzifələrin reallaşdırılması məqsədilə yeni idarəetmə modelləri də tətbiq etməkdədir.

Region sahibkarlarını agentliyin Masallıdakı nümayəndəsi - “KOB Dostu” ilə sıx əməkdaşlığa dəvət edən Orxan Məmmədov qeyd edib ki, bu mərkəz ümumiyyətlə, regionun sənaye potensialının inkişafına, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə öz töhfəsini verəcək.

Sonra “KOB Dostu” ilə bağlı təqdimat keçirilib. Təqdimatda sahibkarlara mərkəzin ümumi fəaliyyət istiqamətləri və göstərəcəyi xidmətlər barədə ətraflı məlumat verilib. Burada sahibkarlara müvafiq xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılıb. Mərkəz texniki avadanlıqlar, internet və digər kommunikasiya vasitələri, eləcə də zəruri maarifləndirici məlumatlarla təchiz olunub. “KOB Dostu” mərkəzində fəaliyyət göstərəcək “KOB könüllüləri” mərkəzə müraciət edən sahibkarlara operativ şəkildə yardımçı olacaq, onlara texniki və s. dəstək göstərəcəklər.

Yerli sahibkarlar isə ilk “KOB Dostu”nun Masallıda fəaliyyətə başlamasından məmnunluqlarını bildirib, mərkəzin göstərəcəyi çoxsaylı xidmətlərin onların işini daha da asanlaşdıracağını, biznes fəaliyyətinin qurulmasında böyük təkan olacağını qeyd edib, özəl bölmənin inkişafına göstərdiyi hərtərəfli dəstəyə, tətbiq olunan yeni dəstək mexanizmlərinə görə Prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

### Əsas vəzifə sahibkarlara şəffaf, obyektiv və nəzakətlə fəaliyyət göstərməkdir

Təqdimat mərasimindən sonra jurnalistlərə açıqlamasında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov vurğulayıb ki, “KOB Dostu” sahibkarlara əsasən 5 sahədə dəstək göstərəcək: “Əsas istiqamət dövlət dəstəyindən ibarət olacaq, yəni sahibkar müvafiq dövlət qurumu ilə sıx əlaqədə ola biləcək. “KOB Dostu” sahibkarla dövlət qurumu arasında bir körpü rolunu oynayacaq. Daha sonra sahibkarların hüquqlarının müdafiəsinə diqqət ayrılacaq. Bununla sahibkarların hüquqları qorunacaq, onlara öz hüquqlarını tanıdacaq. Digər istiqamət maliyyə bazarlarına çıxış üçün müvafiq dəstəkdir. Sahibkarlara bu barədə məlumatlar veriləcək. Vacib fəaliyyət sahələrindən biri də sorğu və monitorinq xidməti olacaq. Bu çox vacib bir haldır ki, “KOB Dostu” sahibkarların problemlərini yerində öyrənə biləcək və məlumatları agentliyin mərkəzi aparatına ötürəcək”.

Bir sözlə, agentliyin ən ümdə vəzifəsi sahibkarların problemlərini aradan qaldırmaq, onlara şəffaf, obyektiv və nəzakətlə xidmət göstərməkdir. Orxan Məmmədov bu vəzifənin öhdəsindən layiqincə gələcəklərini və dövlət başçısının onlara göstərdiyi etimadı doğruldacaqlarını söyləyib.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

# ATƏT-in İllik Toplantısında erməni təxribatının qarşısı alınıb

## **Fərid ŞAHBAZLI:** “Azərbaycan hökuməti ölkədə media azadlığının təminatçısıdır”

**Polşanın Varşava şəhərində ATƏT-in İnsani Dəyərlərin Tətbiqi üzrə İllik Toplantısı keçirilib.**




Toplantıda ATƏT üzvü olan 57 ölkədən səfir, diplomat, deputatlar, beynəlxalq təşkilatların rəhbərləri, habelə hüquq müdafiəçiləri və ictimai-siyasi fəallar iştirak ediblər. İllik toplantıda Azərbaycandan Prezident Adminstrasiyasının rəsmiləri, ayrı-ayrı dövlət qurumlarının vəzifəli şəxsləri, eyni zamanda vətəndaş cəmiyyətinin nümayəndələri də iştirak ediblər. Toplantıda seçki hüququ və demokratik seçkilər, insan hüquqları, media azadlığı, ərazi bütövlüyü, dini inanc azadlığı və radikalizmə qarşı mübarizə, ifadə azadlığı, qaçqın və məcburi köçkünlər, separatizm və terrorçuluğa qarşı mübarizə kimi mühüm mövzular müzakirə olunub.

11 gün davam edən toplantıya Azərbaycan Gənclər və İdman Nazirliyinin dəstəyi ilə qatılan “İslahatçı Gənclər” İctimai Birliyinin sədri Fərid Şahbazlı bir sıra mühüm mövzularla bağlı çıxışlar edərək böhtan və qərəzli kampaniya aparan antiazərbaycançı şəbəkəni ifşa edib.

Fərid Şahbazlı Azərbaycanda söz və media azadlığı sahəsində görülən işlərdən danışıb. O qeyd edib ki, konfransda Azərbaycana qarşı qərəzli və reallıqdan uzaq fikirlər səsləndirilir. Bunlar tam əsassızdır. Azərbaycan hökuməti ölkədə media azadlığının təminatçısıdır: “Azərbaycanda cəmi bir günə xəbər portalı, müvafiq dövlət qurumuna informasiya xaraktetli bildiriş göndərməklə qəzet və jurnal təsis etmək mümkündür. Hazırda ölkəmizin internet media məkanında yüzlərlə xəbər portalı mövcuddur. Jurnalistlər bütün yüksək vəzifəli rəsmi şəxsləri tənqid etməkdə azaddırlar. Bəzi şəxslər isə öz qanunsuz əməllərini jurnalistika fəaliyyəti ilə pərdələmək istəyirlər. Azərbaycanda heç bir jurnalist yazdığı yazıya görə həbs edilməyib”.

Fərid Şahbazlı eyni zamanda “Fundamental azadlıqlar: ifadə və sərbəst toplaşmaq azadlığı, milli insan haqları təşkilatları və vətəndaş cəmiyyəti” mövzusunda müzakirələr zamanı da çıxış edib. O bildirib ki, Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti üçün hökumət tərəfindən geniş imkanlar yaradılıb. Toplantıda xaricdəki antiazərbaycançı qüvvələr tərəfindən Azərbaycanın ünvanına səslənən ittihamların qərəzli olduğu və reallığı əks etdirmədiyi vurğulanıb.

“Azərbaycanda QHT-lərin fəaliyyəti üçün bütün imkanlar yaradılıb. Bir sıra mühüm layihələrdə QHT-lər dövlətin əsas tərəfdaşıdır. Mövcud qanunvericilik QHT-lərin fəaliyyətinə heç bir məhdudiyyət tətbiq etmir. Sadəcə QHT ilə bağlı qanunvericiliyin dəyişilməsindən narahat olanlar indi əvvəl olduğu kimi çirkli pullarını QHT adı altında yuya bilməyən dairələrdir. Onlar indi qanunsuz əməllərini həyata keçirə bilmədikləri üçün narahatdırlar”, - deyə İGİB sədri əlavə edib.

Fərid Şahbazlı Azərbaycanda sərbəst toplaşmaq azadlığı sahəsində də heç bir problemin olmadığını bildirib. O qeyd edib ki, indiyədək müxalifətin mitinqlərini keçirmələri üçün bütün müraciətlərinə müsbət cavab verilib. Mitinqlər üçün ayrılan yerlər şəhərin mərkəzindən 2-3 kilometr aralıqda yerləşir və tamamilə əlverişlidir. Azərbaycanda xalqın adından danışan siyasi qüvvələrin aksiyalarına vətəndaşlar qatılmadığı üçün onlar mərkəzi küçələrdə insanların rahatlığını pozan qanunsuz aksiyalar keçirmək istəyirlər.

Fərid Şahbazlı bildirib ki, Azərbaycanda media və sadə vətəndaşlar istənilən mövzuda hökuməti sərt tənqid edirlər və tənqidə görə Azərbaycanda heç kim cəzalandırılmayıb.

İGİB sədri sonda toplantıda iştirak edən bəzi ölkə nümayəndələri və siyasi fəallara müraciət edərək Azərbaycana qarşı qərəzli münasibətə son qoymağa çağırıb.

Toplantının gedişində eyni zamanda erməni təxribatının da qarşısı alınıb. Həm Azərbaycanın rəsmi nümayəndə heyətinin üzvlərinin, həm də QHT təmsilçilərinin müdaxiləsindən sonra özünü “Avropa Artsax Mərkəzi”nin rəhbəri kimi təqdim edən Harutyun Qriqoryan adlı şəxsin qondarma “Dağlıq Qarabağ Respublikası”nı müstəqil ölkə kimi tanınmasının və Azərbaycanı ittiham etməyə çalışmasının qarşısı alınıb və onun çıxışına imkan verilməyib.

***Fərizə ƏHMƏDOVA, “Azərbaycan”***



# Azərbaycan Parlamenti -100





**“Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı parlamentin indi də varisidir. Varislik həmişə eyni zamanda, böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır. Biz Azərbaycanda bunu edirik və bu sahədə çox şeylərə nail olmuşuq. Hesab edirəm ki, Azərbaycanın bugünkü Milli Məclisi varislik adını şərəflə daşıyır, eyni zamanda, ötən illərdə və xüsusən son dövrdə Azərbaycanın müstəqil dövlətini inkişaf etdirmək üçün çox işlər görübdür”.**

***Heydər ƏLİYEV***





# Müsəlman Şərqində ilk parlamentli respublika

XX əsr bəşəriyyətin çox sürətlə dəyişən, bir-birini əvəz edən siyasi və dövlətçilik sistemlərini və onların ideoloji əsaslarını yaratdı.

Baş verənlər Rusiya imperiyasının tərkibində olan xalqlara “öz müqəddəratını təyinetmə” imkanını verdi, müstəmləkəçilikdən xilas olmaq məfkurəsini ön plana çıxartdı. Belə bir çətin tarixi şəraitdə Azərbaycan xalqı əsrlər boyu uğrunda mübarizə apardığı azadlıq ideyasını və milli dövlətçiliyə nail olmaq arzularını reallığa çevirdi. İstiqlal hərəkatı və bu hərəkatın məntiqi nəticəsi olaraq Şərq aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı.

AXC-nin yaranması son dərəcə çətin və mürəkkəb bir tarixi şəraitdə baş verdi. Çar Rusiyasının süqutuna baxmayaraq, yaranmış yeni hakimiyyət Qafqazı öz nüfuz dairəsindən buraxmaq istəmirdi. Buna görə də 1917-ci il fevral inqilabından sonra əvvəlcə Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, noyabrda isə Zaqafqaziya Komissarlığı yaradıldı. Zaqafqaziyadan Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən sonra orada iştirak edə bilməyən nümayəndələri 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziya Seymini yaratdılar. Vahid bir platforma olmadığından 1918-ci il may ayının 25-də seymin son iclası keçirildi. Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq may ayının 26-da öz istiqlaliyyətini elan etdi. Bir gün sonra, mayın 27-də Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün seymin 44 müsəlman nümayəndəsi Tiflisdə toplandı və Azərbaycanın idarə olunmasını öz üzərlərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdilər. Bununla, Azərbaycanın ilk parlamenti yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda bu zaman Batumda danışıqlar aparan Məhəmməd Əmin Rəsulzadə qiyabi olaraq Milli Şuranın sədri seçildi. Həsən bəy Ağayev və Mir Hidayət Seyidov isə sədrin müavinləri təsdiq olundular. Azərbaycan Milli Şurasının mayın 27-də keçirilən iclasında eyni zamanda, Fətəli xan Xoyski yekdilliklə Milli Şuranın icra orqanının sədri seçildi. İcra orqanının tərkibinə Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Camo bəy Hacınski, Əkbər ağa Şeyxülislamov, Xosrov Paşa bəy Sultanov daxil idilər. 1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycanın istiqlaliyyəti haqqında “İstiqlal Bəyannaməsi”ni qəbul etdi.

Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətini üzvi şəkildə birləşdirən yeni dövlət modeli idi. Bu nümunəvi model sonralar dövlət müstəqilliyi əldə etmiş digər cümhuriyyətlər üçün də örnək oldu. Milli dövlətçiliyin bərpası kimi yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti qısa vaxtda öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin əvvəllərində meydana çıxan milli respublikalar içərisində ən demokratik respublika idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin, hökumətinin yaranmasının əsasını qoydu.

“İstiqlal Bəyannaməsi” ilə həyata vəsiqə alan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquqlarının və azadlıqlarının təmin olunmasına, irqi, milli, dini, sinfi və başqa bərabərsizliklərin ləğvinə və demokratiyaya yol açdı. “İstiqlal Bəyannaməsi”ndə Azərbaycan Demokratik Respublikasında ali icraedici hakimiyyətin Müvəqqəti hökumətə məxsus olduğu bildirilirdi. Müvəqqəti hökumət Azərbaycan Milli Şurası qarşısında məsul idi. “İstiqlal Bəyannaməsi” Azərbaycan Milli Şurası üzvləri tərəfindən qəbul edildikdən sonra təkcə türkdilli xalqlar arasında deyil, bütün islam aləmində ilk dəfə olaraq respublika üsul-idarəsinə qədəm qoydu. İyunun 17-də Azərbaycan Milli Şurasının iclasında deyildiyi kimi: “Dünya müharibəsi və Rusiya inqilabının təsiri ilə yeni doğulmuş və həyat siyasətinə ilk qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir. Bu yeni türk nüzad siyasəti rişə və buluğ bulub da millətlər zümrəsinə vəsail-həyat olaraq girə biləcək, yoxsa sısqa cocuq kimi südəmər halında tərki-həyat edəcəkdir? İştə bütün zehinləri işğal edən bir məsələ! İştə bir zaman ki, müqəddarat milliliyi əllərinə alanlar üçün Azərbaycan nüzadini tələf etdirməmək kimi müşkül, fəqət müşküllüyü ilə bərabər şərəfli bir vəzifə və məsuliyyət tərtib ediyor”.

Cümhuriyyət xadimləri Azərbaycan tarixində parlament mədəniyyətinin də əsasını qoydular. Onlar “İstiqlal Bəyannaməsi”nin 6-cı bəndində “Azərbaycanın başında xalqın seçdiyi Milli Şura durur” fikrini qanuniləşdirməklə, Milli Şuranın ilk Azərbaycan Parlamenti olduğunu, həm də onun elan etdiyi cümhuriyyətin Azərbaycan xalqının qanuni dövləti olduğunu təsdiq etdilər.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk parlamenti - Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 27-dən iyunun 17-dək davam edən və cəmi 20 günlük ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq iki mühüm qərar qəbul edildi: birincisi - Azərbaycanın istiqlalı elan olundu və “İstiqlal Bəyannaməsi” qəbul edildi; ikincisi - Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan hökuməti formalaşdırıldı və 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı. Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda respublika quruluşu yaradıldı.

Milli Şura formasında fəaliyyət göstərən parlament Gəncəyə köçdükdən sonra siyasi səbəblərlə bağlı müvəqqəti olaraq öz fəaliyyətini dayandırdı, F.X.Xoyskinin rəhbərlik etdiyi hökumət ölkəni təkbaşına idarə etdi. Lakin F.X.Xoyskinin təşəbbüsü ilə 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə başladı. Noyabrın 19-da keçirilən iclasında qeyd olundu ki, parlamentdə dövlətin hüdudlarında yaşayan bütün millətlər təmsil olunmalıdır. Azərbaycan Parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq qərara alındı.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin çağırılması ilə əlaqədar Azərbaycan Milli Şurası adından 1918-ci il noyabrın 29-da Azərbaycan və rus dillərində “Bütün Azərbaycan əhalisinə!” müraciətnaməsi dərc edildi. Parlamentin açılışı 1918-ci il dekabrın 3-nə təyin olunsa da, Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları parlamentin açılmasına hərtərəfli mane olmaq üçün bu ərəfədə Bakıya gəlmiş müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməyə çalışırdılar. Parlamentin ilk iclasının açılışı dekabrın 7-nə keçirilir. 1918-ci il dekabrın 7-si H.Z.Tağıyevin Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən keçmiş qız məktəbinin binasında müsəlman Şərqində ilk parlamentin birinci iclasının açılışı olmuşdu. Milli Şuranın sədri M.Rəsulzadə iclası açıq elan etdi. O, ümidvar olduğunu bildirdi ki, müstəqillik xalqımızı sürətlə inkişaf etməyə və azad xalqların gələcək birliyinin müstəqil üzvi olmağa imkan verəcək. O, parlament üzvlərinə müraciət edərək onları vətənin mənafeyini və xalqın əmin-amanlığını partiya mənafelərindən üstün tutmağa çağırdı.

Parlamentin birinci iclasında Fətəli xan Xoyski başda olmaqla, hökumət parlament (Məclisi-Məbusan) qarşısında tam tərkibdə istefa verdi. “Azərbaycan parlamentinin nakazı” adlanan daxili nizamnamə aparatın işini təşkil edirdi. “Parlament nakazı” Rusiya imperiyası Dövlət Dumasının daxili nizamnaməsi əsasında təşkil olunmuşdu. Azərbaycan Parlamentində (Məclisi-Məbusanda) sədrdən, birinci müavindən və fraksiya nümayəndələrindən ibarət məşvərətçi orqan (Məsləhət Şurası) formalaşdırıldı. Parlamentin ilk iclaslarında mandat, reqlament və təsərrüfat komissiyaları yaradılaraq onların tərkibinə seçkilər keçirildi. Fraksiyaların gələcək fəaliyyətinin əsas prinsip və proqramları onların bəyanatlarında ifadə olundu. Bəyanatlar bütün fraksiyaların müstəqilliyini qorumaq və ölkədə demokratik idarəçiliyi təmin etməkdən ibarət idi. Ş.Rüstəmbəyov (“Müsavat” fraksiyası), A.Səfikürdski (Sosialist fraksiyası), Z.Vəzirov (“İttihad” fraksiyası), Moisey Quxman (Milli azlıqlar fraksiyası, yəhudilərin təmsilçisi) mandat komissiyasına; M.Y.Cəfərov (“Müsavat” fraksiyası), Q.Qarabəyli (“İttihad” fraksiyası), din xadimi Vasili Kravçenko (“Slavyan rus ittifaqı fraksiyası”, rusların nümayəndəsi) reqlament komissiyasına; A.Kazımzadə (“Müsavat” fraksiyası), H.Məmmədbəyov (“İttihad”), N.Tsxakava (Milli azlıqlar fraksiyası, gürcülərin nümayəndəsi) təsərrüfat komissiyasına üzv seçildilər. Parlamentin (Məclisi-Məbusanın) sonrakı iclaslarında daha bir neçə komissiya - maliyyə-büdcə, fəhlə, qanunvericilik təklifləri, redaksiya, hərbi işlər, aqrar, sorğu, ölkənin məhsuldar qüvvələrindən istifadə, Müəssislər Məclisinin çağırılması üzrə komissiyalar təşkil edildi. Azərbaycan Parlamentinin (Məclisi-Məbusanın) ilk iclasında müttəfiq (Antanta) qoşunları komandanı general Tomsonun şəxsi nümayəndəsi, polkovnik Kokkerelin, İranın baş konsulu Sədülvüzarənin, İranın maliyyə agenti Vəlik-ül-mülkün, Dağlılar Respublikası hökumətinin sədri T.Çermoyevin, bu hökumətin Azərbaycan hökuməti yanındakı təmsilçisi Qantəmirovun, Gürcüstan Respublikasının təmsilçisi Karstvadzenin, eləcə də Araz Respublikasının nümayəndəsi P.Əliyevin iştirak etməsi artıq AXC-nin regionlar üzrə defakto tanınması demək idi.

Dövlət parlamentin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu. Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar, o cümlədən sayları çox az olan xalqlar da öz deputatları ilə təmsil olunmuşdular (türk-müsəlman əhali - 80, ermənilər - 21, ruslar - 10, almanlar - 1, yəhudilər - 1, gürcülər - 1, polyaklar - 1, Bakı həmkarlar ittifaqları - 3, Bakı Neft Sənayeçiləri İttifaqı - 2).

Azərbaycan Parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına yol verilməsi o zamankı tarixi-siyasi şəraitdə atılan bir addım idi. Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər iki aydan çox müddət ərzində parlamentin iclaslarında iştirak etmədilər. Parlamentə qatıldıqdan sonra isə həmişə Azərbaycan dövlətçiliyinə qarşı xəyanət mövqeyindən çıxış etdilər.

Azərbaycan Xalq Cümhuriyyəti parlamenti bütün fəaliyyətini ölkənin sosial-iqtisadi, maliyyə problemlərinin həllinə, ölkənin ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumağa, ölkədə demokratik hüquq və azadlıqların bərqərar edilməsinə, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsinə, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirməyə, Azərbaycanın beynəlxalq miqyasda tanınmasına, onun xarici ölkələrlə, ilk növbədə, yaxın qonşuları ilə çoxşaxəli əlaqələrinin genişlənməsinə yönəltmişdi. Azərbaycan Parlamenti yarandığı ilk gündən öz işlərini demokratik cümhuriyyətlərə xas təşkilati prinsiplər əsasında qurmuşdu.

Bütün partiya fraksiya və qrupların öz fəaliyyət proqramları ilə bağlı verdiyi bəyanatlarda ümumi bir məqsəd var idi - gənc Azərbaycan Cümhuriyyətinin müstəqilliyi və ərazi toxunulmazlığını, milli və siyasi hüquqlarını qoruyub saxlamaq Azərbaycan xalqının və hökumətinin digər xalqlar və dövlətlərlə, xüsusilə qonşu dövlətlərlə dostluq əlaqələrini yaratmaq və möhkəmləndirmək, respublikada hüquqi-demokratik dövlət quruluşunu bərqərar etmək, geniş sosial islahatlar həyata keçirmək, ölkəni müdafiə edə biləcək güclü ordu yaratmaq. Parlamentin xüsusilə dövlət müstəqilliyinin qorunub saxlanılması, ordu quruculuğu və bu kimi sahələrdə qəbul etdiyi qanun və qərarların müzakirəsində parlament üzvləri həmrəylik nümayiş etdirirdilər.

Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, cümhuriyyət parlamenti özünün həyatiliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə, parlamentin 155 iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (1918, 27 may - 19 noyabr), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə olmuşdur.

Xalq Cümhuriyyəti Parlamenti tərkibində məhdud qrup mənafelərini ümummilli mənafelərdən üstün tutan çoxsaylı fraksiyaların olmasına baxmayaraq, daxili və xarici siyasət məsələlərində gərgin və səmərəli fəaliyyət göstərirdi. Xüsusilə də dövlətin suverenliyinin qorunması istiqamətində atılan addımlar təqdirəlayiqdir. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti və parlamenti ölkənin başı üstünü almış xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində də fəal iş aparırdı. Parlamentin xüsusi diqqət yetirdiyi problemlərdən biri də Azərbaycanın qonşu dövlətlərlə münasibətlərinin dinc yollarla nizamlanması idi. Gərgin müzakirələrdən sonra Gürcüstanla münasibətlər nizama salındı, İranla Azərbaycan arasında dostluq əlaqələri haqqında müqavilə imzalandı. Məlum səbəblərdən daşnak Ermənistanı və sovet Rusiyası ilə münasibətləri yoluna qoymaq isə mümkün olmadı.

Xarici siyasət sahəsində mühüm addımlardan biri də 1918-ci il dekabrın 28-də parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi idi. Bu nümayəndə heyətinin səyləri nəticəsində 1920-ci il yanvar ayının 12-də Paris Sülh Konfransına qatılan bir sıra ölkələr Azərbaycanın müstəqilliyini tanıdılar. 1920-ci il aprel ayının 22-də isə parlament hökumətin təşəbbüsü əsasında Britaniya, Fransa, İtaliya, İsveçrə, Polşa və ABŞ-da diplomatik nümayəndəliklərin açılması haqqında qanun qəbul etdi. Lakin bir neçə gün sonra 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi və Xalq Cümhuriyyətinin varlığına son qoyulması ilə bu işlər yarımçıq qaldı.

Mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan xalqının milli oyanışını əbədi etməyə çalışan cümhuriyyət parlamenti daxili siyasətə çox böyük önəm verir, elmin, xalq maarifinin, səhiyyənin inkişafına diqqət göstərirdi. Ölkənin müxtəlif yerlərində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə, qarşı mübarizə aparılırdı. Bu baxımdan parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması cümhuriyyət xadimlərinin xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. Elm və təhsilin inkişafına xüsusi diqqət yetirən cümhuriyyət parlamenti vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti hökumətin təklifinə əsasən, 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi.

Qeyd edildiyi kimi, parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi sayılan “Azərbaycan Parlamentinin nakazı (təlimatı)” ilə tənzimlənirdi. Maliyyə-büdcə, qanunvericilik təklifləri, Müəssislər Məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat, hərbi, aqrar məsələlər: sorğular üzrə, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyaları idi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin bütövlükdə fəaliyyəti daha çox ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həllinə, ölkənin siyasi və ərazi toxunulmazlığını təmin etməyə, vətəndaşların hüquqlarını qorumaq, dövlətin demokratik və hüquqi əsaslarını möhkəmləndirmək, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün şərait yaratmaq, onun xarici ölkələr, ilk növbədə isə yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələrini yaratmağa yönəlmişdi. Eyni zamanda, bu dövr ərzində vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi, məhkəmə qanunvericiliyi haqqında və s. sənədlər də parlamentdə müzakirə və qəbul edilmişdi. Göründüyü kimi, parlament ölkənin inkişafı üçün hərtərəfli iş aparmış, səmərəli fəaliyyət göstərmişdir.

İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas 1920-ci il aprelin 27-də baş tutmuşdu. Bu iclaslardan 15-i yetərsayın olmaması üzündən keçirilməmiş, 130 iclasda ölkənin daxili, xarici siyasəti, iqtisadiyyat, maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi, qəbulu, ordu quruculuğu və digər məsələlər müzakirə edilmişdi. Fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını təsdiq edilmişdi. Gənc müstəqil respublikada cəmiyyət həyatının müxtəlif sahələrini əhatə edən mükəmməl qanunlar özünün mütərəqqiliyi, demokratik ruhlu olması ilə fərqlənirdi.

Azərbaycan Xalq Cümhuriyyəti xarici təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğradı, onun bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi, xalqımız tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi. 1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti az bir müddət yaşamasına baxmayaraq, XX əsrdə Azərbaycanın həyatında mühüm tarixi bir mərhələ olub xalqımızın gələcəyinin, müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoymuşdur. Məhz buna görə biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, fəaliyyətini və Xalq Cümhuriyyətini yaradanları, o dövrdə qəhrəmanlıq nümunələri göstərən insanları böyük minnətdarlıq hissi ilə yad edirik.

Bu gün müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir. Biz bu varislik prinsipini şərəflə, sədaqətlə yerinə yetiririk. Təbii ki, 1918-1920-ci illərlə 1990-cı illər arasında böyük fərqlər mövcuddur və o dövrlə bu dövr arasında çox böyük zaman kəsiyi var. Bu məsafə də boşluqdan ibarət olmayıb. Suverenlik qazanana qədər olan 70 ildə Azərbaycan xalqı yaşayıb, yaradıb, xalq kimi, millət kimi inkişaf edib və Azərbaycan Respublikasının bu gün müasir dövrdə mövcud olan iqtisadi, siyasi, intellektual, mədəni potensialını yaradıbdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli sərəncamına əsasən, bu il ölkəmizdə “Cümhuriyyət ili” elan edildi. Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə ölkədə və ölkə xaricində silsilə tədbirlər keçirilmişdir. Sərəncamda bildirilir: “...Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır”.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti aramsız və gərgin fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

Müsəlman Şərqinin ilk demokratik, hüquqi respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olmasına baxmayaraq, xalqın milli mənlik şüurunu özünə qaytarmış, müqəddəratını müstəqil şəkildə təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirmiş, həyata keçirilən islahatlarla dövlətçiliyin sütunlarının möhkəmlənməsinə çalışmışdır. Qısa müddətdə cümhuriyyətin mühüm dövlətçilik atributları, ölkə hakimiyyətinin bütün qolları formalaşdırılmış, o cümlədən ilk parlament yaradılmışdır.

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***



# Azərbaycan Parlamenti -100





# BİR TARİX - ÜÇ TALE

**Azərbaycan Xalq Cümhuriyyətinin formalaşdırdığı dəyərlər sırasında parlamentarizm ənənələri xüsusi yer tutur. Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk parlamentli respublika idi. Mövcud çətinliklərə, zamanın ağır tarixi-siyasi şəraitinə rəğmən, bu, o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi.**

Əlimərdan bəy Topçubaşov, Həsən bəy Ağayev və Məmməd Yusif Cəfərov Azərbaycan Xalq Cümhuriyyəti parlamentinə rəhbərlik edən, ölkədə parlamentarizm ənənələrinin formalaşması prosesini yönəldən görkəmli şəxsiyyətlər idi. Bu insanlar öz intellektual potensialları, millətinə olan sədaqətləri ilə XX əsrin əvvəllərində gedən proseslərdə fəal iştirak etmiş, xalqın milli oyanışında misilsiz rol oynamışlar. Onlar dünyanın dəyişən şərtləri altında bütün vəziyyətlərdə Azərbaycanın mənafeyinə xidmət edən addımlar atmış və əksər hallarda istəklərinə nail olmuşlar.

## Millət fədaisi

Görkəmli dövlət xadimi Əlimərdan bəy Topçubaşov Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən, Rusiyanın müsəlman-türk xalqlarının milli-azadlıq hərəkatının liderlərindən idi. O, mükəmməl təhsil almışdı. 1884-cü ildə Birinci Tiflis Gimnaziyasını, 1888-ci ildə isə Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdi. Təhsilini başa çatdırdıqdan sonra bir neçə il Rusiyada işləmişdi.1894-cü ildə Bakıya gələrək hüquqşünas kimi fəaliyyətə başlamışdı. Müstəqil vəkil kimi bir çox mürəkkəb məhkəmə proseslərini udması ona şəhər əhalisi arasında nüfuz qazandırmışdı. Böyük maarifçi Həsən bəy Zərdabinin kürəkəni olan Əlimərdan bəy Topçubaşovu bu işıqlı şəxsiyyətlə qohumluq əlaqələrindən daha çox Azərbaycan sevgisi, xalqın istiqbalı uğrunda yorulmadan çalışmaq əzmi birləşdirirdi. Bu millət fədaisinin çoxşaxəli fəaliyyəti hüquqşünaslıq sahəsindən əlavə, mesenat Hacı Zeynalabdin Tağıyevin 1897-ci ildə aldığı rusdilli "Kaspi" qəzetinə redaktorluqdan, Rusiya ərazisində yaşayan müsəlmanların milli-mədəni hüquqları uğrunda ardıcıl mübarizədən, Bakı şəhər duması, Rusiya Dövlət Duması kimi seçkili orqanlarda təmsilçiliyə qədər ən müxtəlif sferaları əhatə edirdi.

"Kaspi" qəzeti Ə.Topçubaşovun redaktorluğu dövründə milli düşüncəli mətbuat orqanına, azərbaycançılıq ideyalarının başlıca müzakirə mərkəzlərindən birinə çevrilmişdi. O, Bakının ictimai-siyasi həyatında fəal iştirak edirdi. 1901-ci ildə şəhər dumasına üzv seçilmiş, hətta bir müddət onun sədri də olmuşdu.

Ə.Topçubaşov hüquq sahəsindəki zəngin bilik və təcrübəsindən Rusiya müsəlmanlarının hüquqları uğrunda mübarizə işində geniş istifadə edirdi. 1905-ci il iyunun 10-da onun başçılıq etdiyi müsəlman nümayəndələri tərəfindən ərzi-hal hazırlanmış və Qafqaz canişininə təqdim olunmuşdu. Həmin sənəddə göstərilirdi ki, sabiq canişinin dövründə müsəlmanlar ixtiyarsız idilər, rus təbəəsindən sayılmayıb, sözün hərfi mənasında, "ögey övlad" hesab olunurdular.

Bu şikayət ondan irəli gəlirdi ki, müsəlmanlar əsgəri, mülki, ədliyyə və başqa ali işlərdən uzaq salınır, hətta kiçik dövlət işlərinə də götürülmürdülər. Şəhər dumalarında müsəlman qlasnılarının, idarələrdə müsəlman üzvlərinin sayı ümumi xristian qlasnı və üzvlərinin yarısından çox ola bilməzdi. Qafqaz müsəlmanları 25 ildən artıq bir müddətdə özlərinin xeyriyyə cəmiyyətlərini yaratmaq üçün icazə belə ala bilməmişdilər. Proseslərin içində olan Topçubaşov bu münasibətə laqeyd yanaşa bilmir, belə halların aradan qaldırılmasına çalışırdı.

## Ümummüsəlman lideri

Birinci rus inqilabı (1905-1907) dövründə müsəlman xalqlarının azadlıq mübarizəsinin təşkilində Ə.Topçubaşovun əvəzsiz xidmətləri olmuşdu. İnqilabın gedişində Azərbaycanda da genişlənən petisiya (xahişnamələr, müraciətlər və s.) kampaniyasında o, bütün müraciət və ərizələri özü tərtib və təqdim edirdi. 1905-ci ilin aprel ayında Cənubi Qafqaz müsəlmanları adından Rusiya Nazirlər Kabinetinə təqdim olunan petisiyalar da Topçubaşov tərəfindən hazırlanmışdı. Belə bir fəaliyyət Topçubaşovu ümummüsəlman liderinə çevirdi. O, Peterburqda ikən qabaqcıl ziyalılarla görüşür və Rusiya müsəlmanlarının qurultaylarını keçirmək qərarına gəlir.

Birinci rus inqilabı Rusiyada yaşayan türk-müsəlman xalqlarının milli şüurunun oyanmasında mühüm rol oynayır. Bu zaman Ə.Topçubaşovun təşəbbüsü, ciddi hazırlığı və rəhbərliyi ilə 1905-ci il avqustun 15-də Nijni-Novqorodda Ümumrusiya müsəlmanlarının birinci qurultayı keçirilir. O, qurultaya sədrlik edir və çıxışları böyük maraqla qarşılanır. Bu çıxışların hərəsi bir publisistik məqalə təsiri bağışlayırdı.

Rusiya müsəlmanlarının sonrakı qurultaylarının keçirilməsində də Topçubaşovun müstəsna əməyi olmuşdu. 1906-cı il yanvarın 12-23-də Rusiya müsəlmanlarının Peterburqda keçirilən II qurultayı onun hazırladığı "İttifaqi-müslimin" nizamnamə və proqram layihələrini bəyənir, təkmilləşdirmək şərti ilə qəbul üçün növbəti qurultaya təqdim olunması tövsiyə edilir. 1906-cı il avqustun 16-21-də Nijni-Novqorodda keçirilən III qurultayda bu təşkilatın proqramı qəbul olunur. Topçubaşov Rusiya Müsəlmanları İttifaqı partiyasının sədri seçilir. Bu partiya müsəlmanlara ruslarla bərabər hüquqlar verilməsini tələb edirdi.

## Millətin vəkili

1906-cı ildə Bakı quberniyasının I Dövlət Dumasına deputat seçilən Ə.Topçubaşovun təşəbbüsü ilə burada müsəlman fraksiyası yaradılır. Həmin ərəfədə o, millət vəkili kimi Qafqaz və Rusiya müsəlmanlarının lideri səviyyəsində onların hüquqlarını müdafiə edirdi. Cəsarətli addımları, fədakarlığı onun Xalq Cümhuriyyəti qurulanadək siyasi xadim kimi yetişməsində müstəsna rol oynayırdı.

Ə.Topçubaşov millət yolunda çoxsaylı təzyiq və təhdidlərlə də üzləşmişdi. O, dumanın buraxılmasına etiraz edən deputatların Vıborq müraciətnaməsini imzaladığına görə, hətta üç ay həbs cəzasına məhkum olunur. Həmçinin dumaya seçilmək hüququndan məhrum edilir. "Kaspi" qəzetinə rəhbərlikdən uzaqlaşdırılır. Bakı Şəhər Duması üzvlüyündən çıxarılır. Buna baxmayaraq, Ə.Topçubaşov II Dövlət Duması müsəlman fraksiyasının əməli işlərində xüsusi fəallıq göstərir. O, dəfələrlə Peterburqa gedir, Ümumrusiya Müsəlman İttifaqı Mərkəzi Komitəsi üzvlərinin Dumada müzakirəyə çıxarılan qanun layihələri, həmçinin sorğular üzrə fraksiyanın ümumi mövqeyini işləyib hazırlayan iclaslarına sədrlik edir. Ə.Topçubaşov 1905-1906-cı illərdə erməni-müsəlman qırğınlarının yatırılması sahəsində gərgin iş aparır. O, Əhməd bəy Ağayevlə birlikdə 1906-cı ilin fevralında Tiflisdə keçirilən sülh konfransında iştirak edir, erməni terrorizminin, "Daşnaksütyun" və "Hnçak" partiyalarının iç üzünü açan yüzlərlə məqalə yazır.

Dövlət Dumasının müsəlman deputatları və "İttifaqi-müslimin"in üzvləri Topçubaşovun fəaliyyətini davam etdirməsi üçün Moskvada "Daimi təmsilçilik" bürosu açırlar. "Tərcüman" qəzetinin naşiri və redaktoru İsmayıl bəy Qaspiralı 1908-ci il aprelin 11-də yazdığı məktubda onun fəaliyyətini yüksək qiymətləndirirdi.

1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra irticanın yenidən baş qaldırması nəticəsində Ə.Topçubaşov 1910-cu ildə Moskvanı tərk edərək Bakıya dönməli olur. 1914-cü ildə o, Bakıda 45 nəfərdən ibarət "Məşvərət Məclisi" təşkil edərək müsəlmanların "tələblər paketi"ni hazırlayır, çar hakimiyyəti orqanlarına göndərir. 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil edir.

1917-ci ilin mayında Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının I qurultayına sədrlik edir. Noyabrda Gəncə dairəsindən Rusiya Müəssislər Məclisinə nümayəndə seçilir. Ə.Topçubaşov o zaman həm də Cənubi Qafqaz Seyminin üzvü idi.

## İstiqlal səfiri

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra Topçubaşov yeni yaranmış müstəqil milli dövlətin dünyada tanınması üçün səylə işə başlayır. Fətəli xan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə təşkil etdiyi İkinci hökumət kabinetinin tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-dən xarici işlər naziri olur. Avqustun 23-də isə Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilir. 1918-ci il dekabrın 7-də öz işinə başlayan Azərbaycan Xalq Cümhuriyyəti parlamenti elə ilk iclasında, o vaxt özü İstanbulda olan Topçubaşovu parlamentin sədri seçir. O, 1920-ci il aprelin 28-dək bu statusu daşıyır.

İstanbulda qızğın diplomatik fəaliyyət göstərən Topçubaşov 1918-ci il oktyabrın 2-dən 1919-cu il yanvarın 16-dək 36 rəsmi görüş keçirir, danışıqlar aparır. 1919-cu il yanvarın 10-da Sultan VI Mehmetlə, sədrəzəm Tələt Paşa və hərbi nazir Ənvər Paşa ilə görüşür.

1918-ci il oktyabrın 30-da imzalanan Mudros sazişinin şərtlərinə görə türk ordusu Cənubi Qafqazdan çəkilməli, müttəfiqlərin qoşunları Bakını tutmalı idi. Ə.Topçubaşov Azərbaycan nümayəndələrinin iştirakı olmadan Mudros sazişinə Bakının taleyi barədə bəndlərin daxil edilməsinə etiraz əlaməti olaraq hökumət adından Türkiyə Xarici İşlər Nazirliyinə və müttəfiq dövlətlərin hərbi nümayəndələrinə nota təqdim edir. Onun İstanbuldan göndərdiyi məktub əsasında 1918-ci il noyabrın 8-də Milli Şura adından Azərbaycanın müstəqilliyinin tanınması üçün dünya dövlətlərinə müraciət qəbul edilir.

Dekabrın 28-də Azərbaycan hökumətinin və parlamentin ağsaqqallar şurasının birgə yığıncağında Ə.Topçubaşov Paris Sülh Konfransına (1919-1920) göndərilən Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin sədri təyin olunur. O, İstanbuldan birbaşa Parisə yola düşür.

Böyük çətinliklərdən sonra nəhayət, 1919-cu il mayın birinci ongünlüyündə Parisə gəlib çatan nümayəndə heyətinin apardığı ardıcıl diplomatik görüşlər, danışıqlar nəticəsini verməyə başlayır. ABŞ Prezidenti V.Vilsonun təşəbbüsü ilə İngiltərə, Fransa və İtaliya dövlət başçıları səviyyəsində Azərbaycan məsələsi gündəliyə salınaraq müzakirə olunur. Həmin yığıncaqda bilavasitə prezident Vilsonun Ə.Topçubaşovu Azərbaycan nümayəndə heyətinin başçısı olaraq tanıması və Azərbaycanın Paris Sülh Konfransına qatılması təklifi qəbul edilir. 1919-cu il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının birinci il dönümü günü V.Vilson Ə.Topçubaşovun rəhbərliyi ilə Azərbaycan nümayəndələri ilə görüşür.







## "Əbədi ezamiyyət"

Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin, xüsusilə onun başçısı Topçubaşovun gərgin fəaliyyəti uğurla nəticələnir. Nümayəndə heyəti müxtəlif partiya və fraksiyaların üzvlərindən ibarət olmasına baxmayaraq, sülh konfransında vahid mövqedən - gənc Azərbaycan Cümhuriyyətinin mənafeyi mövqeyindən çıxış edirdi. Lakin tarixin və taleyin hökmü çox ağır oldu. Nümayəndə heyəti öz missiyasını qismən yerinə yetirə bildi. 1920-ci ilin yanvarında Ə.Topçubaşovun səkkiz aylıq gərgin mübarizəsi nəticəsində Azərbaycanın dövlət müstəqilliyi Avropada de-fakto tanındı. Amma həmin ilin 28 aprelində bolşevik Rusiyasının müdaxiləsi ilə baş verən çevriliş min bir əziyyətlə qazanılmış bu nailiyyətin üstündən qalın bir xətt çəkdi. Azərbaycanın müstəqillik arzusunu yenidən əlçatmaz etdi.

1919-cu ildə Paris Sülh Konfransına ezam edilən nümayəndə heyətinin üzvləri bu səfərin bir ömür boyu çəkəcəyini ağıllarına belə gətirmirdilər. Əksəriyyəti Parisdə qalmağa və yaşamağa məhkum oldu.

1920-1934-cü illərdə Parisdə qalıb mühacir həyatı yaşamağa məcbur olan Topçubaşov siyasi fəaliyyətini yenə dayandırmadı. Sovet nümayəndə heyətinin etirazlarına baxmayaraq, AXC hökumətinin ona verdiyi mandatla 1920-ci ilin noyabrında Millətlər Cəmiyyətinin Cenevrə toplantısında, 1920-ci ildə London və Genuya, 1923-cü ildə isə Lozanna konfranslarında iştirak etdi. Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunduğu və onların törətdikləri cinayətlər haqqında geniş məlumatlar yaymağa başladı.

Ə.Topçubaşov siyasi fəaliyyətini digər Qafqaz respublikaları nümayəndələrinin fəaliyyəti ilə əlaqələndirməyə çalışırdı. Bu məqsədlə onlar 1921-ci il mayın 8-də Parisdə bir araya gələrək Qafqaz Konfederasiyası yaradılması məsələsini müzakirə etmiş, iyunun 10-da isə üç Qafqaz respublikasının səlahiyyətli nümayəndələri Topçubaşovun sədrliyi ilə keçirilən iclasda siyasi və iqtisadi ittifaq yaratmaq haqqında razılığa gəlmişdilər.

Ə.Topçubaşov 1934-cü ildə, ölümündən bir qədər əvvəl Azərbaycan Milli Mərkəzinin divan üzvü kimi M.Ə.Rəsulzadə ilə birlikdə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası bəyannaməsi"ni imzalamışdı.

Dövrünün güclü və nüfuzlu simalarından olan Əlimərdan bəy mübarizəsini ömrünün sonunadək davam etdirmişdir. Vətəndə də, vətəndən kənarda da yalnız vətən naminə çalışmışdı.

## "Təbib H.A"

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin rəhbərlərindən biri də ö dövrün görkəmli fikir adamlarından olan Həsən bəy Ağayev idi. Bu insanın parlamentarizm tariximizdəki rolu ona görə müstəsna əhəmiyyət daşıyır ki, sədr Əlimərdan bəy Topçubaşov diplomatik missiyası ilə əlaqədar xaricdə olması səbəbindən Məclisi Məbusanın fəaliyyətində iştirak edə bilmədiyindən cümhuriyyət parlamentinə rəhbərliyi faktiki Həsən bəy Ağayev həyata keçirmişdi.

Həsən bəy Ağayev 1875-ci ildə Gəncə şəhərində doğulmuşdu. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra məşhur milyonçu Hacı Zeynalabdin Tağıyevin köməyi ilə Moskva Universitetinin tibb fakultəsində oxumuşdu. 1901-ci ildə Moskvadan Bakıya qayıtmış, əvvəlcə H.Z.Tağıyevin toxuculuq fabrikində və "Qızlar məktəbi"ndə həkimlik etmiş, eyni zamanda, "Kömürçü" meydanında, sonradan onun adı ilə məşhurlaşacaq "Seyid xəstəxanası"nda çalışmışdı.

Həsən bəy Ağayev tələbəlik illərindən siyasi fəaliyyətə böyük maraq göstərirdi. Mövqe etibarilə sosial-demokratlara bağlı olduğundan bu təşkilatla yaxından təmasda idi. "Hümmət"də təmsil olunur, mətbuatda yazılar verirdi. Onun "Həyat" (1905-1906), "İrşad" (1905-1907), "Yoldaş" (1907), "Tərəqqi" (1908-1909), "Həqiqət" (1909-1910), "Günəş" (1910-1911), "Azərbaycan" (1918-1920) qəzetlərində, "Dəbistan" (1906-1908) jurnalında müxtəlif mövzularda müntəzəm yazıları dərc olunurdu. Mətbuatda əsasən, "Təbib H.A", "Təbib H.Ağayev", "Təbib Həsən Ağayev", "Təbib Həsən Ağayev Gəncəli" və s. bu kimi imzalarla çıxış edirdi.

Həsən bəy Gəncədə ilk tibb cəmiyyətini yaradanlardan biri idi. O, həmin vaxt Yelizavetpol Tibb Cəmiyyəti adlanan bu qurumun təməlini 1914-cü ildə Xudadat bəy Rəfibəyovla birgə qoymuşdu.

Həsən bəy Ağayevin həyat yoldaşı əslən Ufa tatarlarından olan çar ordusunun istefadakı polkovniki Sadıq Əbdürrəhmanovun Peterburqda Nücabə Qızlar İnstitutunda pedaqoji ixtisas təhsili almış qızı Xədicə xanım idi. O, H.Z.Tağıyevin "Qızlar məktəbi"ndə müəllimlik etmiş, dövrünün tanınmış maarifpərvər ziyalı qadınlarından olmuşdur.

1917-ci ildən başlayaraq Həsən bəy Ağayev siyasi fəaliyyətə daha çox önəm verməyə başlayır. Xüsusən, 1917-ci ilin fevral burjua inqilabından sonra N.Yusifbəylinin Gəncədə yaratdığı Türk-Ədəmi-Mərkəziyyət Partiyasının xalq arasında böyük nüfuz qazanmasında əvəzsiz xidmətləri olur.

1918-ci ilin 27 mayında Azərbaycan Müvəqqəti Milli Şurası elan edilərkən Həsən bəy Ağayev Milli Şura sədrinin iki müavinindən biri seçilir və səhəri gün onun rəhbərliyi ilə Milli Şuranın ilk iclası keçirilir. İclasda Azərbaycan Xalq Cümhuriyyətinin qurulması barədə qərar qəbul edilir. Bir saatlıq fasilədən sonra iclas öz işinə yenidən başlayır və ilk Azərbaycan hökumətini təşkil etmək haqqında tapşırıq almış Fətəli Xan Xoyski müvəqqəti hökumətin tərkibini elan edir.

Müzakirələrdə iştirak edənlərdən bəziləri "İstiqlal Bəyannaməsi"nin qəbulunun bir qədər uzadılması təklifini irəli sürsələr də, sonda 6 maddəlik "İstiqlal Bəyannaməsi"nin qəbulu vacib sayılır və belə bir mövqenin ortalığa qoyulmasında H.Ağayevin böyük xidməti olur. Beləliklə, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilən təntənəli iclasında Azərbaycanın müstəqilliyi haqqında "İstiqlal Bəyannaməsi"ni ilk olaraq Həsən bəy Ağayev imzalayır.

## "Parlament hakimi-mütləq idi"

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra H.Ağayev Azərbaycan Dəmir Yolu İdarəsinin baş həkimi vəzifəsində çalışır. Eyni zamanda, 1918-ci ilin 7 dekabrında parlament sədrinin müavini seçilərək 1920-ci ilin fevralına qədər Məclisi Məbusana faktiki rəhbərlik edir.

Onun rəhbərliyi dövründə Azərbaycan parlamenti kifayət qədər məhsuldar fəaliyyət göstərmişdi. Bir il müddətində parlamentin 104 iclası keçirilmiş, 120-yə yaxın əsaslı və mühüm qanunlar qəbul edilmişdir. Bir il müddətində ən çox maliyyə nəzarətindən parlamentə 82 qanun daxil olmuş, 55-i qəbul edilmiş, həmin qanunlardan 19-nun komissiyalar səviyyəsində, 5-nin parlament səviyyəsində müzakirə olduğu, 3-nün isə qəbul edilmədiyi göstərilmişdir.

Həsən bəy Ağayevin parlamentə sədrlik etdiyi bir il müddətində Ədliyyə Nazirliyindən 31 qanun layihəsi təqdim olunmuş, bunlardan 14-ü qəbul edilmiş, altısının müzakirə prosesində, ononun komissiyalarda olduğu, birinin isə geri qaytarıldığı qeyd olunmuşdur.

Bu müddətdə daxiliyyə nəzarətindən 24 qanun layihəsi daxil olmuş, bunlardan 14-ü qəbul edilmiş, 1-i müzakirə olunmuş, 6-sının komissiyalarda olduğu, 3-nün geri qaytarıldığı bildirilmişdir. Parlamentə təqdim edilən bütün qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə olunmuş, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul edilmişdir. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiqlənməsində 11 fraksiya və qrupa mənsub millət vəkilləri iştirak etmişlər. Burada 11 komissiya fəaliyyət göstərmişdir.

Parlamentin işi xüsusi olaraq hazırlanmış nizamnamə - "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" əsasında idarə olunurdu. M.Ə.Rəsulzadə sonralar Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyətinə belə qiymət verirdi:"Millət məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin tamamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlamaz, heç bir barışıq imzalanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə - vəzifə yox idi. Parlament hakimi-mütləq idi".

Həsən bəy Ağayevin başçılıq etdiyi Azərbaycan parlamenti xalqın çox ağır günlərində önəmli rol oynadı. O, cümhuriyyət xadimləri arasında o qədər böyük hörmətə malik idi ki, hətta dövlət idarəçiliyində yaranan müəyyən problemləri şəxsi nüfuzu hesabına aradan qaldıra bilirdi. Məsələn, 1918-ci ilin dekabrında baş nazir Fətəli xan Xoyski vəzifəsindən istefa verdikdə Həsən bəy Ağayev ona çox məzmunlu bir müraciət etmişdi. F.X.Xoyskinin etirazından sonra Həsən bəy dekabrın 18-də ikinci müraciətini etmiş və bu müraciətdən sonra Fətəli xan növbəti hökumət kabinəsi yaratmağa razılaşmışdı.

İstiqlal hərəkatının yorulmaz mücahidi H.Ağayev deyirdi: "Türk xalqı azadlığı qanı ilə satın almışdır. Və onu heç vaxt əldən verməyəcəkdir. Azadlıq meyvəsini dadmış olan xalq bir daha zülmətli keçmişə qayıtmaz. Azad Azərbaycan ziyalıdan tutmuş fəhlə-kəndliyə qədər bütün türk xalqının varlığına hopmuş bir idealdır".

## Xaincəsinə qətl

Həsən bəy Ağayev yalnız parlament iclaslarına sədrlik etmirdi. O, eyni zamanda, qanunların hazırlanmasına dəstək olur, müzakirələrdə fəallıq göstərirdi. 1920-ci il fevralın 2-də səhhəti ilə bağlı vəzifəsindən gedərkən bütün parlament üzvlərinin imzası ilə ona təşəkkürnamə verilmişdi.

Həsən bəy Ağayev parlament sədrinin müavini vəzifəsindən uzaqlaşsa da, millət vəkili kimi yenə də fəaliyyətini davam etdirir, qanun layihələrinin hazırlanmsında fəallıq göstərirdi. Məsələn, parlamentin 23 fevral tarixində keçirilmiş iclasının gündəliyinə təqdim olunan 8 qanun layihəsindən 2-sinin müəllifi məhz Həsən bəy idi. Bu layihələrdən biri belə adlanırdı: "Xəstəliklərlə mübarizə üçün səhhəti-ümumiyyə nəzarətinə 3 milyon 275 min rubl buraxılması haqqında qanun layihəsi". Layihə dövlət büdcəsindən ayrılacaq vəsait müqabilində Göyçay, Xaçmaz, Şamaxı, Gəncə, Gədəbəy, Qazax, Dondarlı, Zəngilan, Cəbrayıl, Ağdaş bölgələrinə yoluxucu xəstəliklərə qarşı mübarizə məqsədilə səyyar tibbi briqadaların göndərilməsini nəzərdə tuturdu. Həsən bəy Ağayevin hazırladığı bu qanun layihəsi 3-cü oxunuşdan sonra səsə qoyularaq qəbul olunmuşdu.

Onun təqdim etdiyi digər layihə isə "Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında əvvəlinci bir maarif təsisi haqqında" idi.

1920-ci il aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdə, Həsən bəy Ağayev milli ordumuzun parlaq qələbəsi ilə nəticələnən Əskəran-Qarabağ müharibəsi ilə bağlı Tiflisdə başlanmış Azərbaycan-Ermənistan konfransında səlahiyyətli nümayəndə kimi iştirak edirdi və bir müddət orada qalmışdı.

Bolşevik işğalından sonra Həsən bəy Ağayev əvvəl Gəncədə, bura təhlükəli olduğundan Tiflisdə yaşamağa başlayır. Şəhərdə bolşevik işğalına qarşı mübarizəni davam etdirir. Həsən bəyin nəvəsi Sevda Pepinova xatirələrində yazırdı ki, həmin vaxt H.Ağayev Nəriman Nərimanova məktub göndərir, siyasi fəaliyyətini dayandırdığını bildirir. "Bakıya qayıdıb həkim kimi çalışmaq istəyirəm" - deyə yazır. Nərimanov isə ona nəinki Bakının, hətta Tiflisin də təhlükəli olduğu barədə xəbərdarlıq edir. Oradan da uzaqlaşmağı məsləhət görür. Təhlükənin fərqində olan Həsən bəy iyulun 20-də Tiflisdən Batuma, sonra gəmi ilə Türkiyəyə getməyə hazırlaşır.

Amma Həsən bəy Ağayev 1920-ci il iyulun 19-da axşam dostlarının toplaşdığı evə görüşə gedərkən erməni terrorçuları tərəfindən qətlə yetirilir. Bəzi mənbələr bu qətldə bolşeviklərin əlinin olduğunu təsdiqləyir. O, Tiflisdəki müsəlman qəbiristanlığında - M.F.Axundzadənin və bir ay əvvəl xaincəsinə qətlə yetirilmiş F.X.Xoyskinin məzarlarının yanında dəfn edilir.

## Millət vəkili, nazir, diplomat...

1920-ci il fevralın 2-də Azərbaycan parlamentinin 121-ci iclasında Həsən bəy Ağayev xəstəliyi ilə əlaqədar vəzifəsindən gedərkən parlamentə yeni müavin seçilməsi məsələsi müzakirəyə qoyulur. M.Ə.Rəsulzadə Müsavat fraksiyası adından Azərbaycan parlamenti sədrinin müavini vəzifəsinə Məmməd Yusif Cəfərovu təklif edir. Millət vəkillərindən 47 nəfər M.Y.Cəfərovun lehinə, 5 nəfər isə əleyhinə səs verir.

Məmməd Yusif Cəfərov da Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən idi. 1885-ci ildə Bakıda anadan olmuşdu, tanınmış pedaqoq, jurnalist Əli İsgəndər Cəfərzadənin kiçik qardaşı idi. M.Y.Cəfərov Moskva Universitetinin Hüquq fakültəsini bitirmiş, Bakıya qayıtdıqdan sonra məhkəmə sistemində çalışmış, 1912-ci ildə IV Rusiya Dövlət Dumasına üzv seçilmişdi. Dumada kadet partiyasına qoşulan M.Y.Cəfərov buradakı çıxışlarında çar hökumətinin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini kəskin şəkildə tənqid edirdi. O, Dumanın V bölməsinin, müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyaların üzvü idi. 1917-ci ildə Rusiyada fevral-burjua inqilabı baş verdikdən sonra 1917-ci il martın 9-da Müvəqqəti hökumətin təşəbbüsü əsasında IV Dövlət Dumasının Zaqafqaziyadan olan deputatlarından ibarət yaradılan Xüsusi Zaqafqaziya Komitəsinin tərkibində M.Y.Cəfərov da vardı. Ona yeni yaradılmış komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmək tapşırıldı. 1917-ci il aprelin 15-20-də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirilərkən o, Tiflisdən qurultaya gələrək təbrik nitqi söyləmişdi.

1917-ci il noyabrın 15-də Tiflisdə Y.Gegeçkorinin sədrliyi ilə Müstəqil Zaqafqaziya hökuməti - Zaqafqaziya Komissarlığı yaradıldı. M.Y.Cəfərov bu hökumətdə ticarət və sənaye naziri vəzifəsini tuturdu. 1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi işə başladı. Seymdə gürcü, erməni və azərbaycanlı nümayəndələri iştirak edirdilər. Buraya Azərbaycandan Müsavat Partiyasını və bitərəf demokratik qrupları təmsil edən 30 nəfər, o cümlədən M.Cəfərov da seçilmişdi. 1918-ci il mayın 27-də Zaqafqaziya Seymi buraxılır. Gürcüstanın müstəqilliyi elan edilir və müsəlman fraksiyasının növbəti iclası çağırılır. Burada Müvəqqəti Milli Şura və F.X.Xoyskinin sədrliyi ilə İcra Komitəsi təşkil edilir. Komitənin tərkibinə M.Y.Cəfərov da seçilir.

Ardı 6-cı səh.



# Azərbaycan Parlamenti - 100



## BİR TARİX - ÜÇ TALE

*Əvvəli 5-ci səh.*

1918-ci il mayın 28-də "İstiqlal Bəyannaməsi"ni imzalayan 24 nəfərdən biri də məhz Məmməd Yusif Cəfərov olur. F.Xoyskinin elan etdiyi ilk Azərbaycan hökumətinin tərkibində ona ticarət və sənaye naziri vəzifəsi tapşırılır.

### Nisgilli imza

1918-ci ilin iyun ayının 17-də Milli Şuranın ikinci iclasında M.Cəfərov onun buraxılması məsələsinə öz qəti etirazını bildirmişdi. Bunu Nuru Paşanın və Türkiyə hökumətinin Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi kimi qiymətləndirmişdi. M.Y.Cəfərov birinci hökumətin istefaya getməsi ilə bağlı işdən çıxmış, sonra isə 1918-ci ilin iyun ayının axırlarından 1919-cu ilin martın ortalarına qədər Azərbaycan hökumətinin Gürcüstan hökuməti yanında diplomatik nümayəndəsi vəzifəsini icra etmişdir.

O, bu vəzifədə Azərbaycan və Gürcüstan hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Zaqafqaziya Demokratik Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Azərbaycan, Ermənistan, Gürcüstanın hökumət və Avropa ölkələri nümayəndələri ilə söhbət və görüşlərdə, Azərbaycan, Gürcüstan və Dağlılar respublikalarının nümayəndələrinin Tiflis şəhərində keçirilmiş Zaqafqaziya konfransında yaxından iştirak etmiş və Azərbaycanla Gürcüstan arasında əlavə müvəqqəti kağız pul buraxılması haqqında müqaviləni imzalamışdır.

1919-cu il martın 14-də Azərbaycan parlamenti N.Yusifbəyovun sədrliyi ilə yeni Azərbaycan hökumətini təsdiq edərkən M.Y.Cəfərova bu hökumətdə xarici işlər naziri vəzifəsi verildi. O, bu vəzifədə 1919-cu il dekabrın 22-nə kimi çalışdı və diplomat kimi Azərbaycanın mənafeyini layiqincə müdafiə etdi. Bu, onun imzaladığı Gürcüstan və Azərbaycan respublikaları arasında hərbi-müdafiə müqaviləsində, əlavə müvəqqəti kağız pulun buraxılması haqqında Ermənistan, Gürcüstan və Azərbaycan respublikaları arasında sazişdə, müsəlmanların vəhşicəsinə qırılması əleyhinə Ermənistan XİN-ə, müsəlman əhalisinin mənafeyinin müdafiə edilməsi, Azərbaycanın ərazi bütövlüyü, əmlakının qorunması barədə Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı qoşunlarının komandanlarına göndərdiyi notalardan və s. aydın görünür. M.Cəfərov eyni zamanda, xarici işlər naziri kimi Azərbaycan parlamentinin 1919-cu il iyunun 27-də 51-ci və avqustun 18-də 66-cı iclaslarında çıxış edərək Azərbaycan hökumətinin apardığı xarici siyasət, Gürcüstanla bağlanmış müqavilə, şimaldan general Denikinin təhlükəsi ilə əlaqədar Gürcüstan hökuməti və Böyük Britaniyanın Zaqafqaziyada olan komandanlıqları ilə aparılan danışıqlar haqqında məlumat vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasında da onun böyük xidmətləri olmuşdur.

1919-cu ilin dekabrında N.Yusifbəylinin rəhbərlik etdiyi hökumət kabineti istefaya çıxdığı üçün M.Y.Cəfərov da tutduğu vəzifəni tərk etmişdir. 1920-ci ilin fevralından isə qeyd etdiyimiz kimi, o, Azərbaycan parlamenti sədrinin müavini vəzifəsinə seçilərək aprelin 27-nə qədər həmin iclaslara rəhbərlik etmişdir.

Aprelin 26-dan 27-nə keçən gecə XI Ordu Samur körpüsünü, yəni, Azərbaycan sərhədini keçərək Bakı üzərinə yürüşə başlayır. Aprelin 27-də parlamentin iclası zamanı Quba valisi Əmirxan Xoyski tərəfindən vurulmuş teleqramda xəbər verilir ki, ordu artıq Azərbaycan sərhədini keçib və Xaçmazı tutub. Bu məlumatla əlaqədar parlament yaranmış vəziyyətin araşdırılması üçün M.H.Hacinski başda olmaqla xüsusi nümayəndə heyəti yaradır. Bu vaxt Ağahüseyn Kazımovun və Həmid Sultanovun bolşevik qrupu parlamentə hakimiyyəti müqavimət göstərmədən təslim etmək haqqında ultimatum verir. Həmin gün saat 13:00-da işğalçı ordu Bakıya daxil olur. M.H.Hacinski bolşevik nümayəndələri ilə əvvəlcə Kazımovun evində, sonra isə B.Cavanşirin mənzilində ultimatumu müzakirə edirlər. Bir yandan hökumət böhranı, digər tərəfdən yaranmış mürəkkəb siyasi vəziyyət nəticəsində həmin gün saat 23-də M.Y.Cəfərovun imzası ilə Azərbaycan parlamenti hakimiyyəti müqavimət göstərmədən bolşeviklərə təslim etmək haqqında qərar çıxarır. Bununla da, 1920-ci il aprelin 27-də parlamentin son iclasında gərgin müzakirədən sonra hakimiyyətin başda N.Nərimanov olmaqla Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarın imzalanması da yurdun istiqlalına ruhən bağlı olan M.Y.Cəfərovun acı qismətinə yazılır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra o, pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışır. 1938-ci il mayın 15-də Bakıda vəfat edir, Şağan kəndində dəfn olunur.

* * *

Bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin - bir əsrlik dövlətçilik dəyərlərimizin formalaşmasında iştirak etmiş üç böyük şəxsiyyətimizin taleyidir. Bu gün tarixinin ən qüdrətli çağlarını yaşayan müstəqil Azərbaycan dövlətinin demokratik inkişafında, parlamentarizm ənənələrimizin yaşadılmasında, öz zirvəsinə yüksəlməsində bu talelərin də ziyası var.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Cümhuriyyətin yadigarlarından biri

### Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclasları H.Z.Tağıyevin "Qızlar məktəbi"nin binasında keçirilib

**Yüz ildir ki, ölkəmizdə cümhuriyyətin ənənələri və ideyaları yaşayır, onun izləri yadigar kimi qorunur. Tarixə nəzər saldıqda Cümhuriyyət dövrü ilə bağlı maraqlı faktlarla rastlaşmaq olur.**

Belə ki, 1918-ci il dekabrın 7-də saat 13-də H.Z.Tağıyevin "Qızlar məktəbi"nin binasında parlamentin təntənəli açılışı olub. Bu həmin bina idi ki, hazırda paytaxt Bakının ən izdihamlı, mərkəzi, geniş, gur işıqlı İstiqlaliyyət küçəsində yerləşir. Həmin binada hazırda AMEA-nın Füzuli adına Əlyazmalar İnstitutu fəaliyyət göstərir.

Bu küçədə Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılan abidə isə müstəqil, demokratik Azərbaycan Respublikasının tarixi yadigarı kimi qiymətlidir. Hər il may ayının 28-də abidənin dövlət başçısı, eləcə də xalq tərəfindən ziyarət edilməsi ənənə halını alıb.

Bu binada parlamentin 145 iclası keçirilib. (7 dekabr 1918-ci il - 27 aprel 1920-ci il). Müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılıb, onlardan 230-a yaxını qəbul edilib. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası fəaliyyət göstərib.

AXC Parlametinin yerləşdiyi binanın çox maraqlı tarixi var.



#### Hacının imperator III Aleksandra məktubu və ya çar II Nikolayın xanımı Aleksandra Fyodorovaya bahalı hədiyyəsi

Bakıda qız məktəbi açmaq istəyən Hacı Zeynalabdin Tağıyev əvvəlcə imperator III Aleksandrdan icazə istəsə də, cavab müsbət olmur. Çar II Nikolay taxta çıxanda Hacı yenidən buna cəhd edir. 1895-ci ildə Nikolayın tacqoyma mərasimində Zaqafqaziya müsəlmanlarını təmsil edən Hacı bu dəfə fürsəti əldən vermir. O, çarın xanımı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə bağışlayır. Eyni zamanda, Bakıda onun adına qız məktəbinin açılmasını xahiş edir. Hacı nə etdiyini gözəl anlayırdı. Bunun özgə bir yolu görünmürdü. 1896-cı ildə şifahi, 2 il sonra isə rəsmi razılıq alan H.Z.Tağıyev ilk növbədə, məktəb binası üçün müvafiq yer seçilməsinə və inşasına diqqət yetirdi. Təəssüf ki, bütün dövrlərdə olduğu kimi, o zaman da daxildəki düşmən qüvvələr bu xeyirxah işə mane olmağa çalışırdılar. Yeganə bir yol qalırdı. Hacı bundan da istifadə etməyi lazım bildi. Qaragüruhçuların hədə-qorxularına son qoymaq üçün o, Məkkə, Mədinə, Kərbəla, Xorasan, Təbriz, Tehran kimi dini mərkəzlərə, qardaş Türkiyəyə (İstanbula) nümayəndələr göndərdi.

Onlar həmin şəhərlərin rəsmi din xadimlərindən aşağıdakı məzmunda imzalanmış və möhürlənmiş sənəd gətirdilər: "Qurani-Kərimdə qız uşaqlarının təhsil almasında heç bir qadağa yoxdur. Müsəlman qızları müasir məktəblərdə təhsil ala bilərlər".

1897-ci ildən Hacı bu istiqamətdə fəallığını artırsa da, Rusiya imperator idarələrinin süründürməçiliyi ilə məsələnin həlli süni surətdə yubadılırdı. Hətta icazəyə - məktəbin binasının yerinin müəyyən edilməsinə və tikintisinə 4 il vaxt sərf olunur. Müsəlman qızlar məktəbi üçün bina beləliklə, Bakıda İsmailiyyə binasının yanında (İstiqlaliyyət küçəsi) tikilir.

#### Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə xanımın məktəb binasının tikintisinə dəstəyi

Hacı bu işi memar İ.V.Qoslavskiyə həvalə edir. Məktəbin tikilib başa gəlməsinə 183 min 533 rubl vəsait xərclənir. Məktəb binasının ərsəyə gəlməsində dövrün böyük ziyalıları iştirak edir. Həsən bəy Zərdabinin ömür-gün yoldaşı Hənifə xanım da bu təşəbbüsü çox bəyənir və Hacıya yardımçı olur.

Nəhayət, tarixi gün gəlir: 1901-ci ilin bir payız səhərində bütün şəhər əhalisi məktəbin açılışına toplaşır. "Kaspi" qəzeti həmin hadisəni belə təsvir edir: "Nikolayevski küçəsindəki gözəl imarət bayraqlarla bəzənmişdi. İkinci mərtəbədəki böyük zal gündüz saat 12-də dəvətlilərlə və şəhərin əyan-əşrəfləri ilə dolmuşdu. Məktəbin yaradılması, tikilməsi barədə danışıqlardan sonra çıxışlar oldu. Təhsil ocağında oxuyacaq qızların xor dəstəsi bir neçə Azərbaycan mahnısı ifa etdi. Sonra məktəbin ünvanına göndərilən təbrik teleqramları oxundu. Əlimərdan bəy Topçubaşovun oxuduğu təbriki Həsən bəy imzalamışdı. Orada deyilirdi: "Çox yaşa, Hacı!"

Tariximizin və cümhuriyyətin yadigarlarından sayılan "Qızlar məktəbi" müsəlman ənənələrini Avropa modernizmi ilə bacarıqla birləşdirərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoydu. Maarifçilik tariximizdə, dünyəvi təhsilin inkişafında, Azərbaycan qadınının təhsil almasında Tağıyevin "Qızlar gimnaziyası"nın böyük rolu danılmazdır. Bu məktəbi bitirən onlarca azərbaycanlı qız sonradan millətimizin tərəqqisində yaxından iştirak edib. Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova, həmçinin Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova və onlarca başqaları cümhuriyyət fəallarından olurlar.

#### İstiqlalın həmin binada muzeyləşən ömrü

AXC Parlamentinin yerləşdiyi binada tariximizin daha bir yadigarına da yer tapılıb. AXC dövründə ilk dəfə olaraq təşkil olunan "İstiqlal" muzeyi də bu binada yerləşib. O, Azərbaycanın tarix və mədəniyyətini, milli bədii irsini nümayiş və təbliğ edən ilk dövlət muzeyi kimi Azərbaycan Xalq Cümhuriyyətinin yadigarlarından sayılır. Muzey 1919-cu il dekabrın 7-də Azərbaycan Parlamentinin işə başlamasının il dönümü münasibətilə təşkil olunub. 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanın sovetləşməsindən sonra muzey fəaliyyətini dayandırıb. Eksponatları yeni təşkil edilmiş Azərbaycan Dövlət Muzeyinə (indiki Milli Azərbaycan Tarixi Muzeyi) verilib. Sonradan eksponatların bir hissəsi Moskvaya İnqilab muzeyinə aparılıb. "İstiqlal" muzeyinin fəaliyyəti bir də 71 il sonra, müstəqilliyimizlə birlikdə bərpa edilib. 1991-ci il yanvarın 9-da Azərbaycan "İstiqlal" muzeyinin yaradılması barədə qərar verilib. Cəmi 7 min eksponatla fəaliyyətə başlayan muzeyin hazırkı zəngin ekspozisiya zallarında qədim zamanlardan müasir dövrədək xalqımızın mədəni həyatındakı mühüm hadisələri, dövlətçilik tarixi, müstəqillik mübarizəsi əksini tapıb.

1918-ci il 24 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyətinin ilk bayrağı da bu binada qəbul edilib. Hökumətin qərarı ilə qırmızı parça üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmiş bayraq cümhuriyyətin müvəqqəti rəmzi elan edilib. Azərbaycanın indiki üçrəngli (mavi, qırmızı, yaşıl) bayrağı isə dövlət rəmzi olaraq 1918-ci ilin noyabrında qəbul edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul edib. Konstitusiya qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi və bu istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı.

#### Bu da müasir, müstəqil Azərbaycan - ulu öndər Heydər Əliyevin tarixi yadigarı

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra



ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Qürur və fəxarət hissi ilə deyə bilərik ki, Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi. Bu gün ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq, respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

Azərbaycan bu gün nəinki yerləşdiyi Cənubi Qafqazda, yaxud MDB məkanında, artıq Avropa və dünyada söz sahibi, azad, demokratik, müstəqil dövlət kimi tanınır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## İqtisadi xəbərlər

### Orta aylıq əməkhaqqı 3,7 faiz artıb

Cari ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artaraq 542,3 manat olub.

Əməkhaqqı neft sektorunda 3142,7, qeyri-neft sektorunda 483, o cümlədən dövlət müəssisələrində 428,6, özəl müəssisələrdə 696,7 manat olub.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı isə ölkə üzrə orta göstəricidən yüksək qeydə alınıb.

Məlumatı Dövlət Statistika Komitəsi yayıb.

### TAP-ın Albaniya marşrutunda boruların 205 kilometri qaynaq olunub

Azərbaycan təbii qazını Avropaya çatdıracaq "Transadriatik" (TAP) təbii qaz boru kəmərinin Albaniya hissəsində boruların 205 kilometri qaynaqlanıb. Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommunikasiya rəhbəri Lisa Givert deyib.

L.Givert bildirib ki, bu ayın əvvəlinə TAP-ın Albaniyadan keçən 215 kilometrlik hissəsinin, demək olar ki, hamısı təmizlənib və qiymətləndirilib, həmçinin bütün borular marşrut xətti boyunca düzülüb. Boruların 205 kilometri qaynaqlanıb və onların təxminən 189 kilometri torpağa basdırılıb. Təqribən 145 kilometr ərazi isə bərpa olunaraq tamamilə əvvəlki vəziyyətinə gətirilib.

TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 77 faizdən çoxu icra olunub. Sentyabrın əvvəlinə TAP-ın Yunanıstandan keçəcək 550 kilometrlik hissəsində marşrut xətti üzrə 540 kilometr ərazi tamamilə təmizlənib və qiymətləndirilib. Təqribən 538 kilometr boru marşrut xətti boyunca düzülüb və qaynaq edilib. 504 kilometr boru torpağa basdırılıb və təxminən 430 kilometr ərazi bərpa olunub.

Xatırladaq ki, boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə hazırda biri Yunanıstanda - Kipoidə, digəri isə Albaniyada - Fierdə olmaqla ümumilikdə 2 kompressor stansiyasının, eləcə də Albaniyanın şərqindəki Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi aparılır. Kəmərin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini reallaşdıran İtaliyanın "Saipem S.p.A" şirkətinin qarşıdakı aylarda mikrotunel üçün qazma işlərinə başlaması gözlənilir. Boru kəmərinin Adriatik dənizindən keçəcək 36 düymlük hissəsinin inşası 2019-cu ildə başa çatdırılacaq.

### Azərbaycanın əmanətlərin sığortalanması sisteminin fəaliyyət prinsipləri öyrənilir

Gürcüstan Azərbaycanın əmanətlərin sığortalanması sisteminin fəaliyyət prinsiplərini öyrənir. Əmanətlərin Sığortalanması Fondundan (ADIF) bildiriblər ki, Gürcüstanın Əmanətlərin Sığortalanması Agentliyinin ekspertləri Azərbaycanın əmanətlərin sığortalanması sisteminin fəaliyyət prinsiplərini öyrənmək məqsədilə Bakıda səfərdə olublar.

2017-ci ildə yaradılmış Gürcüstanın Əmanətlərin Sığortalanması Agentliyinin nümayəndələri ilk təcrübə mübadiləsi səfərləri çərçivəsində ADIF-də keçirdiyi görüşlərdə Azərbaycan Respublikasının "Əmanətlərin Sığortalanması haqqında" Qanunu, əmanətlərin sığortalanması sisteminin əsas prinsipləri, fondun strukturu, banklardan hesabatların qəbulu və emalı üzrə elektron hesabat sistemi, sığorta hadisəsi zamanı kompensasiyaların ödənilməsi qaydaları ilə tanış olublar.

Yeri gəlmişkən qeyd edək ki, ADIF-in nümayəndələri Vyana şəhərində Avropa Əmanət Sığortaçılarının Forumunun (EFDI) illik toplantısında iştirak ediblər. Toplantıda Avropa ölkələrinin əmanətlərin sığortalanması fondlarının nümayəndələri əmanətlərin sığortalanması sisteminin stress-testlərin keçirilməsi, risk əsaslı ödənişlərin tətbiqi və əmanətlərin sığortalanması prinsiplərini müzakirə ediblər.

### Enerji sistemində təxirəsalınmaz tədbirlər həyata keçirilir

Prezidentin sərəncamı ilə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə (ASC) edilən yeni təyinatdan sonra bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başlanılıb.

ASC-dən bildiriblər ki, ölkənin enerji sisteminin infrastrukturunun yenidən qurulması və müasirləşdirilməsi məqsədilə müvafiq tədbirlər görülür. Müəssisələrdə əmək və xidmət intizamının möhkəmləndirilməsi istiqamətində, çevik və təkmil idarəetmə mexanizminin qurulması üçün yeni struktur üzərində işlər aparılır. Eyni zamanda, kadr potensialının gücləndirilməsi və ondan səmərəli istifadə olunması kimi vacib məsələlər diqqətdə saxlanılır.

### Toxumçuluq təsərrüfatlarında monitorinqlər davam edir

Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin mütəxəssisləri bu il dövlət və özəl toxumçuluq təsərrüfatlarında istehsal olunmuş və kondisiyaya çatdırılmış payızlıq dənli-taxıl (buğda və arpa) toxumlarının sertifikatlaşdırılması üçün toxumçuluq təsərrüfatlarında monitorinqləri davam etdirir.

Kondisiyaya çatdırılmış buğda və arpa toxumlarının dağlıq və dağətəyi, o cümlədən aran bölgələrində istehsalçı fermerlərə optimal müddətdə satılması məqsədi ilə sertifikatlaşmaya hazır toxumlara baxış keçirilməsinə başlanılıb. Bu məqsədlə Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin əmri ilə Dövlət Xidmətinin və onun yerli qurumlarının mütəxəssislərinin iştirakı ilə 27 nəfərdən ibarət 9 monitorinq qrupu 12 Regional Toxum Sertifikatlaşdırma Mərkəzinin (RTSM) xidmət göstərdiyi 44 rayonun toxumçuluq təsərrüfatlarında monitorinq həyata keçirib və hazırda bu proses başa çatmaq üzrədir. Dövlət Xidmətinin rəhbərliyi tərəfindən bu tədbirin həyata keçirilməsində iştirak edən bütün mütəxəssislərə şəffaflığın təmin olunması üçün müvafiq tapşırıq və tövsiyələr verilib.

Dövlət xidmətinin mütəxəssisləri Bərdə (Bərdə, Ağdam, Yevlax, Goranboy, Tərtər) və Beyləqan (Beyləqan, İmişli, Ağcabədi, Füzuli) regional toxum sertifikatlaşdırma mərkəzlərinin əhatə etdiyi rayonlarda toxumçu fermerlərin iştirakı ilə toxumçuluq təsərrüfatlarına, toxumun anbarda saxlanılmasına, qablaşdırılmasına, etiketlənməsinə, dərmanlanmasına, kondisiyaya çatdırılmasına baxış keçiriblər. Kondisiyalı toxumlara baxış zamanı Bərdə RTSM üzrə 3867 (26 təsərrüfatda), Beyləqan RTSM üzrə 2143 ton (22 təsərrüfatda) təmizlənmiş toxum qeydiyyata alınıb. Qeydiyyata alınmış toxum partiyalarından müvafiq RTSM-nin mütəxəssisləri tərəfindən laboratoriya analizləri üçün işçi və dublikat nümunələr götürülüb. Hazırda toxumların keyfiyyət analizləri davam edir. Keyfiyyət göstəriciləri (təmizliyi, cücərməsi, sağlamlığı, təsərrüfat yararlılığı və s.) müvafiq standartların tələblərinə cavab verən toxumlar həmin RTSM tərəfindən sertifikatlaşdırılır.

### "Caspian Energy Forum Baku-2018" çərçivəsində 8 şirkət əməkdaşlıqla bağlı razılıq əldə edib

"Caspian Energy Forum Baku-2018" çərçivəsində 8 şirkət əməkdaşlıqla bağlı razılıq əldə edib.

Bu barədə AZƏRTAC-a "Caspian European Club"un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev deyib.

O bildirib ki, sentyabrın 20-də Bakıda keçirilən VII beynəlxalq "Caspian Energy Forum" çərçivəsində "Caspian European Club" ilə Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında memorandum imzalanıb. Səkkiz şirkət əməkdaşlıqla bağlı razılıq əldə edib, 5 şirkət onların maraqlarını Avropa İttifaqı ölkələrində təmsil edəcək partnyor, 3 şirkət məhsullarını Azərbaycana çatdıracaq distribütor tapıb və 2 şirkət birgə istehsal haqqında razılığa gəlib.

T.Əliyev əlavə edib ki, "Caspian Energy Forum"un bu il noyabrın 30-da Berlində və gələn il martın 15-də İstanbulda keçirilməsi ilə bağlı rəsmi açıqlamadan sonra 43 şirkət "Caspian Energy Forum Berlin"də, 47 şirkət isə "Caspian Energy Forum Istanbul"da nümayəndə qismində qeydiyyatdan keçib.

# Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan tədbir keçirilib















Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sentyabrın 22-də Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Beynəlxalq Sülh Gününün təsis olunması tarixi və əhəmiyyətindən danışan əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirdi ki, bu il Beynəlxalq Sülh Günü "Sülh hüququ: Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 70 illiyi" devizi altında keçirilir. O, ölkəmizdə də bu günün hər il yüksək səviyyədə qeyd olunduğunu bildirib. Nazir vurğulayıb ki, Beynəlxalq Sülh Günü ilə əlaqədar Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə hər il 21 avqust - 21 sentyabr tarixlərində "Sülh aylığı" keçirilir. Bu ay çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də müvafiq tədbirlər təşkil olunur.

Sahil Babayev dövlət başçısının uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycanın öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda, mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran bir dövlət olduğunu vurğuladı. Nazir, həmçinin ölkəmizdə sosial ədalət prinsipinə söykənən əmək və sosial hüquqlar sisteminin bərqərar olduğunu qeyd etdi. O bildirdi ki, insan hüquqlarının vacib tərkib hissəsi olan əmək və sosial hüquqlar sistemi daim mütərəqqi dünya təcrübəsinə əsasən təkmilləşdirilir.

Nazir dedi ki, yeni qəbul edilmiş "Əlilliyi olan şəxslər haqqında" qanun fiziki məhdudiyyətli vətəndaşlarımızın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təcrübəni əks etdirməkdədir. Ölkəmizdə əlilliyi olan şəxslər üçün bərpa mərkəzləri şəbəkəsinin genişləndirilməsi, fərdi reabilitasiya proqramının icrası istiqamətində işlər aparılır.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanova Beynəlxalq Sülh Gününü təsis edən BMT tərəfindən bütün dünya dövlətlərinə sülhyaratma proseslərinin önündə getməyin, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmanın tövsiyə olunduğunu vurğuladı. O, insan hüquqlarının təmin olunmasının yalnız sülh şəraitində mümkünlüyünü vurğulayaraq torpaqlarının 20 faizi işğal edilmiş, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan ölkəmiz üçün sülh mövzusunun önəmli olduğunu diqqətə çatdırdı. Elmira Süleymanova Dağlıq Qarabağ münaqişəsi ilə üzləşən xalqımızın sülh mövzusuna həssas yanaşdığını deyərək, belə tədbirlərin sülh mövzusunun təbliğinə təkan verdiyini bildirdi.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və təşkilatın İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai BMT ilə Azərbaycan arasında insan hüquqlarının qorunması istiqamətində səmərəli əməkdaşlığın qurulduğunu vurğuladı. Bildirdi ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsindən 70 il keçməsinə baxmayaraq, bu gün də bu istiqamətdə səmərəli işlər görülərək maarifləndirmə aparılır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dənizkənarı Milli Parkda Beynəlxalq Sülh Gününə həsr olunan əl işlərindən ibarət sərgiyə baxdı.

Sərgidə əlilliyi olan şəxslərin sülh mövzusunda yaratdığı incəsənət nümunələrinə, tematik əyləncə güşələrinə də baxış oldu.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada sərgilənən əl işlərinin müəllifləri ilə söhbət etdi, əsərlərin yaradılması prosesi ilə maraqlandı, onlara gələcək yaradıcılıq fəaliyyətlərində uğurlar arzuladı.

Leyla Əliyeva BOCCIA İdman Federasiyasının idmançıları ilə də görüşdü. Ölkəmizdə BOCCIA idmanının yaradılması Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşıb.1984-cü ildə Paralimpiya Oyunlarının proqramına daxil edilən BOCCIA 34 il ərzində 50 ölkədə inkişaf etdirilərək sürətlə məşhurlaşıb. Azərbaycan Milli Paralimpiya Komitəsi tərəfindən 2013-cü ildən ölkəmizdə BOCCIA idman növünün təbliğinə başlanılıb və bu idman növü üzrə milli komanda yaradılıb. Azərbaycan idmanı üçün yenilik olan bu idman növündə ağır kateqoriyalı əlillik dərəcəsi olan uşaqlar, gənclər və yaşlılar güclərini sınaya bilərlər.

Beynəlxalq Sülh Günü kimi tədbirlər Prezident İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" çərçivəsində əhalinin hüquq düşüncəsinin inkişafına, sülh və dözümlülük mədəniyyətinin təbliğinə xidmət edir.

Leyla Əliyeva uşaqlarla birlikdə bütün dünyada sülh rəmzi olan göyərçinləri səmaya buraxdı.

Tədbir iştirakçıları Beynəlxalq Sülh Gününün daha bir rəmzi jestini həyata keçirdilər. Onlar rəngli boyalarla əl izlərini tabloya qoydular.

Dənizkənarı Milli Parkda əlilliyi olan şəxslərdən və uşaq yaradıcılıq mərkəzlərindən olan rəqs qrupları musiqili proqramla çıxış etdilər. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, rəqs edənlər arasında eşitmə qabiliyyəti olmayan uşaqlar da var idi. Amma buna baxmayaraq, bulvara gələn hər kəs bu çıxışları böyük maraqla izlədi.

Beynəlxalq Sülh Günü 1981-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən təsis edilib. 2001-ci ildə Baş Assambleya hər il Beynəlxalq Sülh Gününü qeyri-zorakılıq və atəşkəs günü olaraq qeyd etməyi qərara alıb. Bu əlamətdar gün BMT-nin Nyu Yorkdakı baş qərargahında yerləşən "Sülh zəngi"nin çalınması ilə başlayır. Yaponiya parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın mütləq dünya sülhü!" sözləri yazılıb.

## Azərbaycan ilə Rusiya arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib



Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində sentyabrın 22-də Moskva hökumətinin naziri, Moskva Şəhər Mədəniyyət Departamentinin başçısı Aleksandr Kibovski ilə görüşüb.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, görüş çərçivəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında mədəniyyət sahəsində ikiillik tədbirlər planının hazırlanması və bir sıra digər məsələlər müzakirə edilib.

Müzakirələr zamanı təhsil müəssisələri arasında kadrlar mübadiləsinin həyata keçirilməsi, rejissorların müştərək qastrol səfərlərinin təşkili, o cümlədən kitabxana sahəsində Moskvada tətbiq olunan ən son texnologiyaların Bakıda da tətbiqi imkanlarına baxılması, beynəlxalq festivallarda müştərək iştirak, Azərbaycan bəstəkarlarının əsərlərinin Moskva teatr repertuarlarına əlavə edilməsi, müştərək tamaşaların qoyulmasının və Moskvanın hər hansı bir teatrında bir həftəlik "virtual pəncərənin" təşkil olunması, qarşılıqlı sərgilərin keçirilməsi, arxeologiya sahəsində birgə fəaliyyətin genişləndirilməsi məsələləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu iştirak edib.

## GUAM-a üzv dövlətlərin hökumət başçılarının iclasına hazırlıq məsələləri müzakirə olunub

Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 47-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda GUAM çərçivəsində digər ölkələrlə, beynəlxalq təşkilatlarla siyasi, iqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib. Bundan başqa, tərəflər GUAM-a üzv dövlətlərin hökumət başçılarının Kişineuda keçiriləcək iclasına hazırlıq məsələlərini müzakirə ediblər. İclasda Azərbaycanı xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

## *Kristina Marti LANQ:* "İsveçrə və Azərbaycan arasında çox yaxşı əlaqələr mövcuddur"

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov Bern şəhərində İsveçrənin xarici işlər üzrə dövlət katibinin müavini xanım Kristina Marti Lanq ilə Berndə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə İsveçrə rəsmisi iki ölkə arasında çox yaxşı əlaqələrin mövcud olduğunu bildirib, Azərbaycan və İsveçrə prezidentlərinin Davos Dünya İqtisadi Forumu çərçivəsində görüşlərini və mütəmadi dialoqunu yüksək qiymətləndirib.

Xələf Xələfov öz növbəsində iki ölkə arasında siyasi dialoqun aparılmasını və təmasların həyata keçirilməsini, o cümlədən mütəmadi olaraq XİN-lərarası siyasi məsləhətləşmələrin və ikitərəfli yüksək səviyyəli səfərlərin vacibliyinə diqqət çəkib.

Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinə toxunan X.Xələfov bildirib ki, münaqişənin sülh yolu ilə həlli BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsindən keçir. Bununla belə, Ermənistanın hazırkı siyasi rəhbərliyi münaqişənin sülh yolu ilə həllinə konstruktiv mövqe göstərmək əvəzinə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının möhkəmləndirilməsi məqsədini daşıyan, bir-birinə zidd siyasi bəyanatlarla çıxış edir və bu da sülh danışıqlarına yönəlmiş səyləri pozur, bölgədə mövcud olan zərif sabitliyə və təhlükəsizliyə təhdid yaradır. Hadisələrin bu kontekstdə inkişafına və onun təhlükəli nəticələrinə görə bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür.

Görüşdə, eyni zamanda, Azərbaycan və İsveçrə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Xüsusilə qeyri-neft sektoru, sənaye, nəqliyyat-kommunikasiya, kənd təsərrüfatı, əczaçılıq, turizm sahələrində həyata keçirilən milli və regional layihələrdə İsveçrə şirkətləri iştirak etməyə dəvət edilib. Bundan başqa, peşə təhsili sahəsində əməkdaşlıq imkanları da müzakirə edilib.

Görüşdə Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın imzalanmasının regional və beynəlxalq əhəmiyyəti qeyd edilib, Xəzər dənizi vasitəsilə həyata keçirilən Şərq-Qərb nəqliyyat dəhlizi layihəsinin həm regional, həm beynəlxalq səviyyədə yaratdığı imkanlar, həmçinin ölkəmizin təşəbbüsü ilə həyata keçirilən beynəlxalq enerji layihələri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə, həmçinin Azərbaycan Respublikasının İsveçrə Konfederasiyası və Lixtenşteyn Knyazlığındakı səfiri Xanım İbrahimova da iştirak edib.

## XİN: "KTMT baş katibinin Ermənistan-Azərbaycan münaqişəsinə dair açıqlama verməsi təşkilatın mandatından kənardır"

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibinin vəzifə səlahiyyətindən sui-istifadə edərək Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı açıqlama verməsi təşkilatın mandatından kənar xarakter daşıyır. Ermənistan vətəndaşlığını daşıyan baş katibin açıqlaması subyektiv və qərəzlidir və Ermənistan istisna olmaqla, üzv dövlətlərin münaqişə ilə bağlı mövqeyi ilə ziddiyyət təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir ki, təşkilatın baş katibi Ermənistan silahlı qüvvələri tərəfindən iki ölkənin sərhədi boyunca Azərbaycan ərazilərinin, o cümlədən mülki insanlar və obyektlərin müxtəlif silahlardan davamlı olaraq atəşə tutulması faktının üzərindən sükutla keçir. Hərbi ritorikadan danışan baş katibə Ermənistan baş nazirinin vəziyyətin gərginləşməsinə və danışıqlar prosesinin pozulmasına xidmət edən cəfəng və ziddiyyətli açıqlamaları ilə tanış olmağı tövsiyə edirik.

Qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca gərginliyin yaranmasının səbəbi Azərbaycan ərazilərinin işğalının davam etdirilməsi və Ermənistan qoşunlarının ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni mövcudluğudur.

Baş katibə xatırlatmaq istərdik ki, KTMT-nin beynəlxalq hüquqi əsasını təşkil edən və 2010-cu il dekabrın 10-da yeniləşdirilmiş Kollektiv Təhlükəsizliyə dair Müqavilənin 1-ci bəndinə uyğun olaraq iştirakçı dövlətlər dövlətlərarası münasibətlərdə güc tətbiq etmək və ya güc tətbiq edərək hədələməkdən çəkinmək barədə öhdəliklərini bir daha təsdiq ediblər. Üzv dövlət olan Ermənistanın Azərbaycana qarşı yürütdüyü hərbi təcavüz və işğalçılıq siyasəti KTMT-nin əsasını təşkil edən hüquqi sənədlərlə belə ziddiyyət təşkil edir.

KTMT-nin baş katibi həqiqətən gərginliyin aradan qaldırılmasında maraqlıdırsa, onda üzv dövlət olan Ermənistan qoşunlarının BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etməsi faydalı olardı.

# Yeni parkın özəlliyi







Bakı həm də parklar şəhəridir. Bənzərsiz Dənizkənarı bulvardan başlayaraq paytaxtın ayrı-ayrı rayonlarındakı, hətta qəsəbələrindəki parkların hamısı səfalı və füsunkardır. Yəni Bakı parklarının hərəsinin öz gözəlliyi və özəlliyi var.

Xətai rayonundakı bu yeni parkın özəlliyi isə ona yaşıllıqlarla bərabər, daşdan yonulmuş fiqurların yaraşıq verməsidir. Odur ki, burada istirahət edənlər təmiz havadan bəhrələnməklə, yaşıllıqlar qoynunda yaxşı dincəlməklə yanaşı, həm də maraqlı sənət əsərlərinə - daşdan yonulmuş müxtəlif məzmunlu və ölçülü heykəllərlə tanış olurlar.

***"Azərbaycan"***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***








# Lerik və Yardımlıda elektrik enerjisi infrastrukturu yenidən qurulur

Lerik və Yardımlı rayonlarında elektrik enerjisi infrastrukturu yenidən qurulur.

"Azərişıq" ASC tərəfindən cənub regionunda aparılan yenidənqurma işləri davam etdirilir. İstismar müddətini başa vurmuş elektrik şəbəkələri yenidən qurulur. Texniki itkilərin səviyyəsinin minimuma endirilməsi, əhalinin, kənd təsərrüfatı, sənaye, turizm və iaşə obyektlərinin keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün 2018-ci ilin 9 ayı ərzində əsaslı işlər görülüb.



Ölkəmizin turizm sektoruna daxil olan Lerik rayonunda da sürətli yenidənqurma işləri aparılır. Xüsusən də qış aylarında bu ərazidə kəskin hava şəraitini nəzərə alaraq, "Azərişıq" ASC çətin relyefdə ən etibarlı elektrik dayaqları ilə dayanıqlı enerji nəqlinə nail olub. Rayonun bir çox kəndlərində, eləcə də rayon mərkəzindən İranla sərhəd istiqamətində 35 kilometr məsafədə yerləşən Zuvand adlanan ərazidə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilib. "Cənub" Regional Elektrik Təchizatı və Satış İdarəsinə (RETSİ) daxil olan Lerik Elektrik Şəbəkəsi bu ilin 9 ayı ərzində 110 kilovoltluq hava xəttində 136 ədəd yararsız ağac dirəkləri dəmir dayaqlarla əvəz edib. Rayonun Şingədulan, Camaşair, Böyük Orand və Kəlvəz kəndlərində elektrik enerjisinin ötürülməsində bütün problemlər tamamilə aradan qaldırılıb, dayanıqlı və etibarlı enerji təchizatı üçün bu kəndlərdə 12 min metr SİP kabelləşmə aparılıb, 400-dək yeni dəmir dayaqlar basdırılıb. Yeni güc mənbələrinin yaradılması üçün 9 ay ərzində 10-dan yuxarı komplekt transformator məntəqəsi (KTM) quraşdırılıb. Abonentlərin sayğacla təmin edilməsində də xeyli uğura nail olunub. Cari ildə Lerik rayonunda 1200-dən çox istehlakçı yeni sayğacla təmin edilib.

"Cənub" RETSİ-yə daxil olan Yardımlı rayonunda da bu ilin 9 ayı ərzində elektrik enerjisinin ötürülməsində əhəmiyyətli dəyişikliyə nail olunub. Abonentlərin etibarlı və dayanıqlı elektrik enerjisi ilə təminatı üçün "Azərişıq" ASC tərəfindən Yardımlı rayonu ərazisində 70 ədəd 10 kilovoltluq metal dayaq, 828 ədəd 0.4 kilovoltluq metal dayaq basdırılıb, 38 220 metr məsafədə kabelləşmə işi aparılıb. Yeni güc mənbəsi kimi 9 ədəd KTM quraşdırılaraq istifadəyə verilib. Rayonun bütün kəndlərində çətin relyef və məsafə uzaqlığına baxmayaraq, təmir-bərpa işləri aparılıb, abonentlər etibarlı elektrik enerjisi ilə təmin olunub. Hazırda rayonun Ostayır və Dəlləkli kəndlərində son tamamlama işləri aparılır. Yardımlı şəhərində və Ostayır kəndlərində 486 abonent yeni smart tipli sayğaclarla təmin edilib. Qarşıdan gələn qış fəslini nəzərə alaraq, rayonun bütün kəndlərində yoxlama-sınaq işləri də həyata keçirilir.

Hazırda Lerik və Yardımlı rayonlarında 0,4 kilovoltluq elektrik şəbəkələrinin ÖİN (özünüdaşıyan izolyasiyalı naqillər) kabellərlə əvəzlənməsi işləri davam etdirilir, yeni avadanlıqlar (dayaqlar, SİP kabellər, KTM-lər və s.) quraşdırılır, sayğaclar dəyişdirilir.

***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 112 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 112 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Abdinli, Kəngərli, Sarıcalı, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.


**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.09.2018-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## Bu gün respublika ərazisində hava yağıntılı olacaq

Azərbaycanda sentyabrın 23-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə yağıntının leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-20°, gündüz 22-25° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 5-29° isti olacağı ehtimalı var.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 13-18° isti olacağı proqnozlaşdırılır.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-18°, gündüz 23-27° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 19-24° isti, dağlarda gecə 5-10°, gündüz 10-15° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Axşam hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-19°, gündüz 23-28° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-20°, gündüz 22-26° isti, dağlarda gecə 10-14° isti , gündüz 16-20° isti olacağı gözlənilir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi cəmiyyət sədrinin müşaviri Qara Nəbiyevə bacısı

**RƏFİQƏ NƏBİ QIZI PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## İranda hərbi paradda terror aktı



İranın cənubunda yerləşən Əhvaz şəhərində hərbi parad zamanı terror aktı törədilmişdir. Bu barədə Press TV telekanalı xəbər verir.

Məlumata görə, naməlum şəxslər parad zamanı atəş açmışlar. "Tasnim" agentliyinin verdiyi xəbərə görə, İslam İnqilab Qvardiyasından 24 nəfər həlak olmuş, 50-dən çox adam yaralanmışdır.

Dünən İranın müxtəlif şəhərlərində, o cümlədən Tehranda hərbi parad keçirilmişdir. Parad 1980-1988-ci illər İran-İraq müharibəsinə həsr olunmuş Müqəddəs Müdafiə Həftəsi çərçivəsində təşkil olunmuşdur.

## Almaniyanın mədəniyyət xadimləri nazirin istefasını tələb edirlər



Almaniyanın daxili işlər naziri Horst Seehofer vəzifəsindən getməlidir. Bu tələb mədəniyyət xadimlərinin məktubunda yer almışdır. Məktubu 376 aktyor, rejissor, jurnalist, alim, rəssam və musiqiçi, o cümlədən Berlin kinofestivalının rəhbəri Diter Kosslik, rejissor Eberhard Keler, yazıçı Tereziya Mora və digərləri imzalamışlar.

Məktub "Ləyaqət, məsuliyyət, demokratiya" adlanır. Mədəniyyət xadimləri Seehoferi federal hökumətin iş qabiliyyətini sabotaj etməkdə və ölkənin beynəlxalq aləmdə nüfuzuna xələl vurmaqda ittiham edirlər. Onlar xatırladırlar ki, Seehofer əvvəllər miqrasiyanı "bütün problemlərin anası" adlandırmış və bununla "mühacir kökənli 18,6 milyon adamı girov götürmüş, onları bütün problemlərin mənbəyi elan etmişdir". Seehofer miqrasiya haqqında bu bəyanatı Xemnitsdə sağ radikalların iştirakı ilə baş vermiş iğtişaşlardan bir neçə gün sonra səsləndirmişdir.

Mədəniyyət xadimləri məktubda naziri sağçı fəalların hərəkətlərini ört-basdır etməkdə günahlandırmış, habelə Konstitusiyanın müdafiəsi üzrə federal idarənin sabiq başçısı Hans-Georq Maseni dəstəklədiyinə görə tənqid etmişlər. Onların fikrincə, Seehofer özünü "fitnəkar, geridə qalmış və insanlara münasibətdə nalayiq adam kimi" aparır, bununla da ölkəni parçalayır.

## ABŞ Venesuelaya təzyiqi artıracaq



ABŞ Venesuelaya təzyiqi gücləndirməyi planlaşdırır. Bu barədə dövlət katibi Mayk Pompeo "Fox News" telekanalına müsahibəsində bildirmişdir.

Pompeo qeyd etmişdir ki, "yaxın günlərdə Venesuela rəhbərliyində xalqın maraqlarına zidd hərəkət edən adamlara təzyiqin səviyyəsini artıracaq bir sıra addımlar görəcəksiniz". Eyni zamanda o, söhbətin Venesuela hökumətinə, ilk növbədə Prezident Nikolas Maduroya qarşı ABŞ-ın yeni sanksiyalarından gedib-getmədiyini dəqiqləşdirməmişdir. "Biz təminat vermək niyyətindəyik ki, Venesuela xalqı öz fikrini ifadə edə bilməlidir" deyə dövlət katibi əlavə etmişdir.

Bundan əvvəl "The Nyu York Times" qəzeti xəbər vermişdi ki, ABŞ hökumətinin nümayəndələri venesuelalı hərbçilərlə Maduronun devrilməsi barədə danışıqlar aparmışlar. O vaxt Karakas Vaşinqtonun hərəkətlərini tənqid etmişdi. Venesuelada dərin iqtisadi böhran davam edir. BMT-nin məlumatına görə, artıq 2,3 milyon nəfər ölkəni tərk etmişdir.

## Çin ABŞ-la ticarət danışıqlarından imtina etdi



ABŞ-ın yeni rüsumlarından sonra Çin Vaşinqtonla ticarət məsələləri üzrə məsləhətləşmələri davam etmək həvəsini itirmişdir. Bu barədə "The Wall Street Journal" qəzeti xəbər verir.

Pekin ÇXR Dövlət Şurası baş nazirinin müavini Lü Xenin və bu danışıqları hazırlamaq üçün Vaşinqtona getməli olan nümayəndə heyətinin səfərini ləğv etmişdir. Yeni məhdudiyyətlər tətbiq etmək hədələri fonunda Çin rəsmiləri bildirmişlər ki, təzyiq taktikası onları əməkdaşlığa məcbur edə bilməz və ona görə də Pekin təhdid altında danışıqlardan vaz keçmək vədini yerinə yetirir.

Xatırladaq ki, ABŞ-ın bir sıra Çin mallarına tətbiq etdiyi 10 faizlik rüsumlar sabah qüvvəyə minir. Əgər Pekin cavab tədbirləri görsə, Vaşinqton 267 milyard dollar həcmində Çin mallarına və xidmətlərinə artırılmış tariflərlə bağlı əlavə paketə əl atacaq.

## Yəmən aclıqla üz-üzə



Yəməndə vəziyyət fəlakətə yaxındır: müntəzəm olaraq yemək əldə etmək imkanından məhrum olan sakinlərin sayı yaxın vaxtlarda təxminən 1,5 dəfə artaraq 11,5 milyon nəfərə çata bilər. Bu barədə BMT baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukok Təhlükəsizlik Şurasının iclasında məlumat vermişdir.

Loukok xəbərdarlıq etmişdir ki, "biz aclıqla mübarizəni uduzuruq: yaxınlaşdığımız dönüş nöqtəsindən sonra ölkədə aclıq ucbatından adamların kütləvi şəkildə ölməsinin qarşısını almaq mümkün olmayacaq". O bildirmişdir ki, 29 milyonluq əhalinin 18 milyonu ərzaqla təmin olunmayıb. Onların 8 milyonu acınacaqlı vəziyyətdədir və bu adamlara təcili ərzaq yardımı tələb olunur.

BMT baş katibinin müavini ölkədə Yəmən rialının dəyərdən düşməsi ilə əlaqədar iqtisadi böhrana diqqət yetirmişdir. Ölkədə praktiki olaraq bütün ərzaq məhsulları idxal edildiyinə görə valyutanın dəyərinin aşağı düşməsi qiymətlərin artmasına gətirib çıxarır. Loukokun dediyinə görə, elə hallar var ki, vəziyyəti aclıq kimi qiymətləndirmək mümkündür. Məsələn, yeməyə heç nə olmadığından adamlar yarpaq yeyirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8602
Sifariş 2730